www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 13-14 avqust 2016-cı il Şənbə № 177 (6498) Qiymətı 60 qəpik

## Xəbər

**Samuxda 25 yaşlı oğlan sevdiyi qıza görə intihar etdi**

yazısı səh.14-də

## Gündəm

### Nalbəndyan istefa verir?



Erməni mətbuatı onun yerinə xarici işlər nazirliyi aparatının rəhbəri Vigen Sarkisyanın gətiriləcəyini yazır

yazısı səh.2-də

### Azərbaycanın Rusiya və İranla birliyinə ABŞ necə yanaşacaq?

yazısı səh.7-də

### "Beynəlxalq Bank işi"ndən yeni xəbərlər

yazısı səh.5-də

### Xalq artistinin qızı erməni stilistlə yeni şəkillərini yaydı

yazısı səh.12-də

### Deputatın sələmçilik fəaliyyətinin gizlinləri ortaya çıxır

yazısı səh.5-də

### Prezidentlərin gizli sevgi hekayələri: Lenindən Saakaşviliyədək...

yazısı səh.15-də

### Xəstələrin xaricə üz tutmasının səbəbi - maddi faktor, yoxsa...

yazısı səh.13-də

### Dövlət Departamentinin hesabatına sərt reaksiya

yazısı səh.6-da

### Türkiyəyə iç savaş, Cənubi Qafqaza nüvə zərbəsi təhlükəsi...

yazısı səh.10-da

### YAP imza toplamasını yekunlaşdırır, Müsavat 80 faizini yığıb

yazısı səh.12-də

### Putin Prezident Administrasiyası rəhbərini dəyişdi-Vayno kimdir?

yazısı səh.6-da

### Rusiya-Ukrayna münasibətləri yenidən gərginləşdi

yazısı səh.4-də

## Qarabağ üçün yeni şans pəncərəsi - Qərbdən yox, Şərqdən!

# RUS-TÜRK ANLAŞMASI: SURİYADAN SONRA QARABAĞ...

İki regional gücün dünyanın ən böhranlı məsələsində gözlənilən əməkdaşlığı Güney Qafqaza da inikas edə, bölgənin ən "yaşlı" probleminin həllinə yol aça bilər; Putinin danışmanı: "Qarabağ nizamlanmasında Türkiyəyə böyük rol ayrılıb..."




yazısı səh.4-də

## Qanunlar Xəzəri hasarlayan məmurlara "bata bilmədi"

2003-cü ildən bu yana dənizin hasarlarına görə qanun 5 dəfə dəyişib, amma indiyədək bir hasar uçurulmayıb, bir məmur belə cəzalandırılmayıb

yazısı səh.5-də



### Rauf Arifoğlu İctimai Fikir Akademiyasının qonağı oldu

yazısı səh.3-də



Tahir Süleymanov

### Deputat villasından və azan qadağasından danışdı

yazısı səh.12-də



### Türkiyə səfirindən ilginc açıqlamalar: "Canına qəsd planlanan seçilmiş bir prezident..."

yazısı səh. 8 və 9-da



## Bu il 1107 nəfər narkoloji müayinədən keçib

**Bu ilin 6 ay ərzində Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin Respublika Narkoloji Mərkəzinə məhkəmə-narkoloji tibbi yoxlamadan keçmək üçün 1107 nəfər göndərilib. Bu barədə virtualaz.org-a Səhiyyə Nazirliyinin mətbuat xidmətindən məlumat verilib.**

Bildirilir ki, 2016-cı ilin 6 ayı ərzində sərxoşluq hallarının bütün növlərinin təyini məqsədi ilə aparılan tibbi müayinədən 11715 nəfər keçib. Onlardan 478 nəfər narkotik vasitələrin istifadəsinə görə müayinə olunub, 243 nəfər istifadəçi aşkarlanmış və müvafiq qeydiyyata götürülüb.

2016-cı ilin 6 ayı ərzində 1321 nəfər stasionar müalicəyə qəbul olunub. Onlardan 573 nəfəri "Alkoqol qəbulu nəticəsində psixi və davranış pozuntuları", 748 nəfəri " Opioidlərin qəbulu nəticəsində psixi və davranış pozuntuları" diaqnozları ilə stasionar müalicəyə qəbul olunub.

Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin "Respublika Narkoloji Mərkəzində insan immunçatışmamazlığı virusunun infeksiyası üzrə könüllü məsləhət və müayinə məntəqəsinin yaradılması barədə" 22/I-ŞH saylı 16.07.2011-ci il tarixli əmrinə əsasən 14.07.2011-ci il tarixdən Respublika Narkoloji Mərkəzində insanın immunçatışmamazlığı virusunun infeksiyası üzrə könüllü məsləhət və müayinə məntəqəsi yaradılıb. 2016-cı ilin 6 ayı ərzində müayinədən 1088 nəfər keçib.

## ABŞ-ın Bakıdakı səfirinin yeni müavini işə başlayıb

**ABŞ-ın Bakıdakı səfirliyi səfirin yeni müavini Uilyam Gilin Azərbaycanda fəaliyyətə başlamasını bəyan edib. U.Gil Virciniya ştatında anadan olub. Meri Kollecinin tarix üzrə bakalavr dərəcəsini alıb. Fransız, Azərbaycan, italyan və ərəb dillərində danışır.**

ABŞ Dövlət Departamentində 1995-ci ildən çalışan U.Gil ABŞ-ın Diplomatik Xidmət İdarəsinin karyeralı əməkdaşıdır. Bakıya gəlməmişdən öncə Vaşinqtonda İnsan Resursları Bürosunun inkişaf məsələləri üzrə əməkdaşı olub. 2011-2013-cü illərdə Qərbi Avropa məsələləri şöbəsinin direktor müavini və müvəqqəti direktor vəzifəsində çalışıb. 2007-2011-ci illərdə Milanda ABŞ konsulu, 2005-2007-ci illərdə isə Beyrutda ABŞ-ın konsulu kimi çalışıb. 2006-cı ilin iyul-avqust müharibəsi zamanı 15.000 amerikalının təxliyə əməliyyatını əlaqələndirib. U.Gil həmçinin Hindistan və Mərakeşdə də fəaliyyət göstərib.

❑ **"Turan"**

## Rusiyadan Türkiyəyə turist axını başlayıb

**"Türkiyədə fövqəladə vəziyyətin elan edilməsi ölkə vətəndaşlarının hüquqlarını məhdudlaşdırmır". Bunu jurnalistlətə açıqlamasında Türkiyənin Azərbaycandakı səfiri İsmayıl Alper Coşkun bildirib.**

Səfir qeyd edib ki, bir müddət əvvəl Rusiya ilə yaranan problemlərə görə Türkiyəyə turist axınında azalma olub və bu, rəqəmlərlə təsdiqlənir: "Amma iki ölkə arasında olan problem həll olunub. Artıq ikitərəfli reyslərimiz bərpa edilib. Rusiyalı turistlər artıq Türkiyənin kurort şəhərlərinə səfər edirlər".

## Fətullah Gülənin qardaşı oğlu saxlanılıb

**FETÖ rəhbəri Fətullah Gülənin qardaşı oğlu və vəkili Kamal Gülən saxlanılıb. Bu barədə "Anadolu" agentliyi məlumat yayıb. Məlumata görə, bir vaxtlar bağlanmış STV kanalında aparıcılıq edən Kamal Gülən Araç rayonunda yol nəzarəti zamanı bir avtomobildə saxlanılıb. Qayınatasının evinə getdiyini bildirən Gülən, Kastamonu Polis İdarəsinə aparılıb.**

"Qaya Mətbuat Yayımı" MMC!

**- İstənilən qəzet və jurnallar həm də sərfəli qiymətə:**

- Əgər siz qəzet və jurnalların rahatlıqla evinizə və ya ofisinizə çatdırılmasını;
- Mətbuatı aldıqdan sonra abunə haqqını ödəmək və bu ödənişin formasını sərbəst seçmək hüququndan istifadə etmək;
- Tirajınızda lazım gəldikdə dəyişikliklər etmək;

**Ən başlıcası ayda 26 dəfə nəşr olunan "Yeni Müsavat" - 0.60 AZN və bundan əlavə 2500 adda yerli və xarici nəşrlər.**

- Abunə yazılmaq üçün uzağa getmək lazım deyil.

**Telefonla zəng etməyiniz kifayətdir: Bakı şəh. 564-63-45; 598-35-22**

- Respublikanın digər böyük şəhərlərinə də abunə qəbul olunur.

# Dövrilik azaldı, bəs iki ildə nə dəyişdi?

**Azərbaycanın əsas gündəlik nəşrlərindən olan "Yeni Müsavat" və "Azadlıq" qəzetləri 2014-cü ilin iyul ayından dövriliyini azaldıb. Əvvəllər hər gün çıxan qəzetlər o vaxtdan bazar sayından imtina edib həftədə 6 dəfə işıq üzü görür. Redaksiyalar bu addımı qəzet yayımındakı problemlə əsaslandırıb.**

Ötən iki ildə nə dəyişib? Transparency.az-a danışan **"Yeni Müsavat" qəzetinin baş direktoru Ələsgər Süleymanov bazar nömrəsinin nəşrini əlverişsiz hesab etdiyini vurğulayıb:** "Bazar günü qəzetlərin ən çox satıldığı paytaxtda əhalinin sayı azalır. Əsas yayım firmaları da həmin gün işləmir. Bu baxımdan, bazar saylarının bərpası mümkünsüzdür".

Ələsgər Süleymanov qeyd edib ki, ümumiyyətlə çap mediasının bazarı gün-gündən zəifləyir: "Əksəriyyət qəzeti internetdən oxuyur".

**"Azadlıq" qəzetinin redaktoru Sücəddin Şərif də transparency.az-a bazar nəşrini bərpa etməyin gündəmdə olmadığını bildirib:** "Bazar günü satış aşağı olur, qəzetin həmin gün çıxan sayı redaksiyanı ziyana salır. Ona görə də bazar günü işləyib növbəti günün nömrəsini hazırlayırıq. Bazar ertəsi satış gur olur.




Satış həcminə görə "Azadlıq" başqa qəzetlərdən xeyli irəli çıxsa da, ümumilikdə yayım şəbəkəsi zəifdir. Ölkədə, regionda, dünyada baş verənlər camaatda informasiyaya tələbatı artırsa da, yayım arealı geniş deyil, bir yandan da yay fəsli öz işini görür".

**Bakının əsas qəzet köşklərini çap məhsulları ilə təmin edən "Əks-səda" yayım firmasının rəhbəri Vüqar Həsənov transparency.az-a deyib ki, bazar günü fəaliyyət göstərmirlər:** "Həmin gün qəzetlərin çoxu nəşr olunmur. Redaksiyalar bazar günü çıxmaq qərarı versə, biz də yayımla məşğul olmağa hazırıq".

**Qəzet satışının ümumi vəziyyətinə gəldikdə, Vüqar Həsənov hazırkı durumun ənənəvi mövsümi xarakter daşıdığını bildirib:** "Yay aylarında qəzet satışı həmişə zəif olur. İnsanlar şəhərdə qalmır, dincəlmək üçün müxtəlif istiqamətlərə üz tuturlar, bu da oxucu bazarının daralmasına gətirir".

## Geri çağırılan 32 diplomat Türkiyəyə qayıtmayıb

**"Türkiyəyə geri çağırılan, lakin səbəbsiz, icazəsiz olaraq geri qayıtmayan diplomatların sayı 32-dir".**

APA-nın NTV telekanalına istinadən verdiyi məlumata görə, bu sözləri Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlu iranlı həmkarı Məhəmməd Cavad Zəriflə keçirdiyi mətbuat konfransında deyib.

Nazir bildirib ki, ümumilikdə 208 diplomat geri çağırılıb.

O, həmçinin Banqladeşdəki türk diplomatların ABŞ və Rusiyaya qaçması məsələsinə də toxunub: "Banqladeşdəki səfirliyimizdə çalışan 3 diplomatımızı geri çağırmışdıq. Onlardan biri qayıtdı və burada işə başladı, ikisi isə ABŞ-a qaçıb. Diplomatın Rusiyaya qaçması ilə bağlı məlumatı yeni almışıq və bunu detallı şəkildə araşdırırıq".

## Hakan Şükürün atası tutuldu

**Türkiyənin məşhur futbolçusu Hakan Şükürün atası Semet Şükür dünən saxlanılıb.**

"Hürriyet" qəzetinin verdiyi məlumata görə, polisə S.Şükürün Adapazarının Sakarya prospektində yerləşən Salko məscidində cümə namazında olduğu barədə məlumat daxil olub.

Məscidə gələn polislər cümə namazının bitməsini gözləyiblər. Namaz bitəndən sonra polisləri görən S.Şükür onlara təslim olub.

S.Şükür ifadəsi alınması üçün polis idarəsinə aparılıb. Qeyd edək ki, Sakarya Baş Prokurorluğu Fətullahçı Terror Təşkilatı (FETÖ) ilə bağlı aparılan istintaq çərçivəsində H.Şükür və atası S.Şükürün saxlanılması barədə qərar verib. Dünən isə prokurorluq H.Şükür və atasının mal və mülklərinin müsadirə edilməsi barədə qərar qəbul edilib.

## AXCP fəalı 30 sutkalığa həbs edilib

**AXCP Xətai rayon şöbəsi Gənclər Komitəsinin fəalı Məsud Rzalı 30 gün inzibati həbs cəzasına məhkum edilib.**

Partiyadakı mənbələr "Turan"a bildiriblər ki, polislər onu «Qara Qarayev» metro stansiyası ətrafında saxlayıblar və nəyə görə saxlandığına aydınlıq gətirməyiblər. Onu rayon məhkəməsinə aparıblar. Orada məlum olub ki, fəal polisə müqavimətdə ittiham olunur.

Fəalın həmkarları hesab edirlər ki, M.Rzalının təqib edilməsinə səbəb sosial şəbəkələrdə aktiv fəaliyyət göstərməsidir.

## Vitse-admiralın işini aparan müstəntiqin məhkəməsi başlayır




**Yaxın günlərdə dələduzluqda ittiham olunan Hərbi Prokurorluğun sabiq müstəntiqi Vüqar Məmmədli barəsində olan cinayət işi üzrə məhkəmə prosesi başlayacaq.**

Bu barədə virtualaz.org saytına vəkil Adəm Məmmədov məlumat verib. Vəkilin sözlərinə görə, cinayət işi üzrə materiallar hakim Rafiq Abbasovun icraatındadır. Məhkəmənin hazırlıq iclası avqustun 23-nə təyin edilib.

Qeyd edək ki, V.Məmmədli Cinayət Məcəlləsinin 178-ci (dələduzluq) maddəsinə əsasən ittiham olunur. Onun barəsində həbs-qətimkan tədbiri seçilməyib.

Bir müddət əvvəl Azərbaycan Respublikası Hərbi Prokurorluğu Hərbi Prokurorluğun sabiq əməkdaşı Vüqar Məmmədli ilə bağlı yayılmış xəbərlərlə əlaqədar məlumat yayıb. Həmin məlumatda qeyd olunub ki, Hərbi Dəniz Qüvvələrinin (HDQ) sabiq komandanı, vitse-admiral Şahin Sultanovun başçılığı ilə HDQ-nin qabaqcadan əlbir olan bir qrup vəzifəli şəxsi barəsində Respublika Hərbi Prokurorluğunda aparılmış cinayət işi üzrə istintaq qrupunun üzvü kimi fəaliyyət göstərmiş müstəntiq V.Məmmədlinin barəsində HDQ-nin yanacaq xidmətinin sabiq rəisi, hazırda həbsdə olan polkovnik-leytenant Kazım Əsgərovun müraciəti əsasında aparılmış xidməti yoxlamanın nəticələrinə görə, o, 2015-ci ilin oktyabr ayında tutduğu vəzifədən kənarlaşdırılmaqla, barəsində Cinayət Məcəlləsinin müvafiq maddələri ilə cinayət işi başlanıb və istintaq yekunlaşdırılaraq baxılması üçün Bakı Hərbi Məhkəməsinə göndərilib.

## Bir sinfin bütün məzunları tələbə adı qazandı

**Tələbə Qəbulu üzrə Dövlət Komissiyası (TQDK) 2016/2017-ci tədris ili üçün Azərbaycan Respublikasının ali təhsil müəssisələrinə yerləşdirmənin nəticələrini açıqlayandan sonra bir sıra maraqlı faktlar qeydə alınıb. Belə maraqlı faktlardan biri də eyni sinfi bitirən məzunların hamısının ali məktəbə qəbul olunmasıdır.**

Modern.az saytı xəbər verir ki, bu hadisə Naxçıvanda qeydə alınıb. Belə ki, bu il Naxçıvan şəhər 12 nömrəli tam orta məktəbin XI b sinfini bitirən 20 nəfər məzunun hamısı ali məktəbə sənəd verib və hamısı da tələbə adını qazanıb.

## Nalbəndyan istefa verir?

**Ermənistanın xarici işlər naziri Eduard Nalbəndyanın vəzifəsindən vidalaşacağı barədə məlumatlar gəlir.**

Müsavat.com-un Ermənistan mətbuatına istinadən verdiyi xəbərə görə, bu yaxınlarda Nalbəndyan tutduğu vəzifədən azad edilə bilər.

Ermənistan Xarici İşlər Nazirliyinin mətbuat katibi Tiqran Balayan "Aykakan Jamanak" qəzetinə verdiyi müsahibədə bununla bağlı gedən xəbərləri şərh etməkdən boyun qaçırıb. Bu isə Nalbandyanın vəzifədən gedəcəyi barədə şayiələri daha da artırıb. Erməni mətbuatı onun yerinə xarici işlər nazirliyi aparatının rəhbəri Vigen Sarkisyanın gətiriləcəyini yazır.

**Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!**

Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!

Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz və ya email yazmağınız kifayətdir.

**Telefon: (012) 434 93 01, 434 01 33**

YENİ MÜSAVAT
N 177 (6498) 13 avqust 2016

**“Yeni Müsavat” qəzetinin baş redaktoru Rauf Arifoğlu avqustun 12-də İctimai Fikir Akademiyasının (İFA) qonağı oldu. İFA-nın təşkil etdiyi ictimai müzakirədə məruzəçi kimi çıxış edən baş redaktor “Siyasətin və siyasətçilərin formalaşmasında medianın rolu” mövzusunda məruzə etdi, medianın siyasi proseslərdəki rolundan, ictimai fikrin formalaşmasında medianın mövqeyindən, siyasətçilərin mediadan yararlanma metodlarından, ölkədə yaşanan siyasi durğunluq fonunda mətbuatın da müəyyən itkilər verdiyindən danışdı. Səmimi atmosferdə keçən görüşdə baş redaktor iştirakçıların suallarını cavablandırdı.**



# Rauf Arifoğlu İctimai Fikir Akademiyasının qonağı oldu

## “Yeni Müsavat” qəzetinin baş redaktoru: “Bizdə siyasilərin mətbuatla davranış kültürü yoxdur”

**Rauf Arifoğlu bildirdi ki, media, KİV artıq siyasətin əsas amili rolundadır:** “Dünya, eləcə də Azərbaycan siyasəti mediaya istinadla yürüdülməkdədir. Dünyada indiyəcən kəşf olunan ictimai nəzarət mexanizmləri içərisində ən yüksəyi olan media iqtidarların davranışlarına, müxalifətin planlarına və hakimiyyət uğrunda gedən mübarizənin taleyinə ciddi və əsaslı təsir edir. Mediasız siyasət yoxdur. Siyasətsiz media var ola bilər, lakin bunun tam əksi mümkün deyil. Media siyasi proseslərə yön verir, bəzən prosesi yaradır, bəzən onu bitirir.

Dünyanın siyasi məkanından mətbuatı çıxartsaq, siyasətdəki istənilən cəhdlər və təşəbbüslər heç bir nəticə verə bilməz. Media qurumları olmasa, nə dünyada, nə də Azərbaycanda siyasi proseslərin, uğurların, siyasətçilərin mesajlarının cəmiyyətə çatdırılması mümkünsüzdür. Dünya çapında məhz bu üstünlüyünə görə mətbuat siyasətin də, hakimiyyətin də, cəmiyyətin də üstündədir. Ona xüsusi bir münasibət var. Son illərdə medianın ölkə, dünya və siyasət həyatındakı ən böyük əhəmiyyəti Türkiyədəki məlum çevriliş cəhdi zamanı ortaya çıxdı. Türkiyə mediası olmasaydı, çevriliş baş tutacaqdı, Türkiyədə iqtidar dəyişəcəkdi. Bunu Türkiyə yetkililəri də etiraf edirlər. Bu baxımdan, hazırda medianın siyasi proseslərdə oynadığı rol zamanında Leninin verdiyi tərifdən daha ötədir".

**Məruzəçi onu da vurğuladı ki, jurnalistika standartlarına görə medianın tərəf tutması, siyasətə qarışması doğru deyil:** “Dünya standartlarına görə, media siyasətə ancaq güzgü tutar, qarışmaz, vuruşmaz, siyasətçilərin əvəzindən yazı yazmaz, döyüşməz, mübarizə aparmaz. Mübarizə aparan qrupların, siyasətçilərin, xalqın fəaliyyətini əks etdirər. Dünya standartlarında mətbuatın partiyası olmamalıdır. Partiyası olan mətbuatın obyektivliyinə dərhal şübhə yaranır ki, həmin mətbuat bir qrupun xidmətindədir və onların maraqlarından çıxış edir. Jurnalistikanın bir qızıl qaydası var-partiyalı olmamaq. Buna qəbahət kimi baxırlar.

Azərbaycanda siyasilərin və iş sektorunun mediadan yararlanma kültürü yoxdur. Hər kəs yararlanır, lakin bunu çox mədəniyyətsiz şəkildə həyata keçirir. Azərbaycan siyasətçiləri medianı ya düşmən gözündə, ya da xidmətçi gözündə görürlər. Əlinin altında, tapşırıqları icra edən partiya funksioneri kimi. Bu cür qəzetin ən bariz nümunəsi “Yeni Azərbaycan” və “Azadlıq” qəzetləridir. Onlar bir-birilərinin tərs üzüdür. Hər ikisi siyasi partiya və liderlərin xidmətində, hər ikisi öz təşkilatına xidmətçi, başqasına düşmən kimi davranır. Hər ikisinin siyasi leksikonu eynidir. Həm təqdir, həm də tərif leksikonları..."



**“Mətbu və informasiya dəstəyi xidmət sektorudur. Burada heç nə parasız olmur, ola bilməz. Dünyada da belədir. Lakin bizim müxalifətin bizə xidmət üçün illərdir para ödəməməsi bir yana, üstəlik, deyir ki, gəl səni minim, məni iqtidara daşı... 20 il sonra deyəndə ki, düş, belim ağrıyır, bir az da özün yürü iqtidara. Deyir ki, buna bax e, satılıb...”**

**Baş redaktor Azərbaycanda partiya mətbuatının sovet rejiminin qalıqlarından biri olduğunu diqqətə çatdırdı:** “Azərbaycanda isə niyə bu baş vermədi? Qərbin 100 il əvvəl keçdiyi məsələləri biz hələ indi müzakirə edirik. Səbəb odur ki, bizdə uzun illər kommunist rejimi hökm sürüb, qəzetlər partiyanın orqanı idi, hər şey partiyanın idi. Bizim 1989-cu ildə yaratdığımız mətbuat orqanları da rejimə, partiyaya alternativ idi. Alternativ olaraq orada struktur necə idisə, biz elə qurmuşduq. Mən "Yeni Müsavat" qəzetini quran zaman bizim qəzet Azərbaycan Milli Demokrat Yeni Müsavat Partiyasının orqanı kimi qeydə alındı. Bu xətt elə də davam etdi. Ancaq həmin zamanlarda da dünyada mətbuat azad idi, müstəqil idi, partiyaya bağlılığı yox idi".

**R.Arifoğlu qeyd etdi ki, hazırda ən yaxşı siyasətçi mediası olan, ya da çox olan siyasətçi deyil, ən yaxşı siyasətçi mediadan yaxşı istifadə edən, onun xalqa çıxış kanallarından yararlanmağı bacaran siyasətçidir:** “Siyasətçi ilk növbədə medianı, onun təmsilçilərini maraqlandırmalıdır. Məlumatlı olmalı, səlis, qüsursuz, ardıcıl danışmalı, orijinal fikirlər yürütməlidir. Müxbir və media patronları üçün belə siyasətçilər iş yoldaşı kimi bir şeydir. Onlar asan müsahiblərdir, materialların üzərində az işlənir. Üstəlik, maraq haləsi yarada bilirlər, media quruluşuna tiraj gətirirlər. Belə siyasətçilərdən ən parlaq nümunələr Arzu Nağıyev, Ərəstun Oruclu, İlham İsmayıl və başqalarıdır”.

**Məruzəçi onu da vurğuladı ki, inkişaf etmiş ölkələrdə media yerli hökumətlərə güclü təsir mexanizmlərinə malikdir, Azərbaycanda isə bu təsir minimumdur:** “Mediada gedən bir yazı nazirlərin istefasına, hökumətlərin çökməsinə səbəb olur. Media həm də ümummilli proseslərdə qıcıq yaradan mərkəzdir. Azərbaycanda isə media hökumətə minimum təsir imkanına malikdir. Çünki ölkədə media quruluşları zəifdir, müstəqil mətbuat azdır, iş başında isə ictimai rəylə o qədər də hesablaşmayan hökumət var. Lakin bütün bunlara baxmayaraq, bəzən medianın hakimiyyətə fövqəladə təsiri olur. Məsələn, polkovnik Raqub Orucov nümunəsi... Azərbaycan mediasındakı bir özəllik də odur ki, müharibədə millətin tərəfində olur, düşmənin informasiya müharibəsinə imkan verməyən ciddi bir silaha çevrilir”.



**Medianın siyasi proseslərdə mövqeyini ortaya qoymasına, radikallıq göstərməsinə gəlincə, R.Arifoğlu bildirdi ki, bu durum yalnız Azərbaycan mediasında müşahidə olunur:** “Media radikal olmalıdırmı? Radikallıq hansı dərəcədə mətbu elementdir? Bu suallara cavab verərkən, mətbuatın funksiyaları yada salınmalıdır: məlumatlandırmaq, reklam etmək, maarifləndirmək, düşündürmək, əyləndirmək. Azərbaycanda media siyasi partiya və liderlərə tabe olduğu üçün bu funksiyaların demək olar ki, yarısını əhatə edə bilmir. Savaş vərəqinə çevrilir. Örnək "Azadlıq" qəzeti. O çevrədə olanlar isə digər media quruluşlarına həmin yanlış prizmadan baxırlar, hakimiyyəti söymürsən, deməli, satılmısan. Əksini sübut etmək istəyirsənsə, söy, baxaq görək necə söyürsən, biz istifadə etdiyimizi ifadələri bilirsənmi, onları istifadə edə bilirsənmi. Əksər siyasətçilər bir yazıya, tənqidə, lap elə layk məsələsinə görə jurnalistlərlə dalaşır, onlarla küsülü qalır, kin bəsləyirlər. Onlar siyasi tərbiyəsizlərdir. İsrarla media quruluşlarının fəaliyyətinə qiymət verirlər, bəzən buna müsahibələr həsr edirlər. Qəzetlərdən, media quruluşlarından siyasi mövqe tələb edirlər. Bu, yolverilməzdir, antidemokratikdir, söz azadlığına basqı formalarından biridir. Qəzetlərin siyasi mövqeləri ola bilməz. Qəzet siyasətin əsas amilidir, lakin mövqeyi yox, güzgüsü var. Yəni cəmiyyətdə, siyasətdə baş verənləri göstərməli, bütün mövqelərə açıq olmalıdır. Media siyasi proseslərin cərəyan etdiyi küçələri əvəzləyən bir meydandır, alternativ parlamentdir. Proseslər orada getməlidir".

Daha sonra Rauf Arifoğlu ictimai müzakirə iştirakçılarının suallarını cavablandırdı.

**Tədbir iştirakçılarından biri Rauf Arifoğluna qəzetlərin tirajının nə üçün az olması ilə bağlı sual verdi. Baş redaktor bildirdi ki, Azərbaycanda baş verən nəhəng siyasi proseslər həm liderləri, partiyaları həm mətbuat orqanlarını partiya çıxartdı:** “Bu bir fenomen idi. Qəzetlər baş verən proseslərin güzgüsüdür. Proses varsa, qəzet yüksəkdədir, yoxdursa, qəzet sönəcək”.

**Başqa bir tədbir iştirakçısı isə mətbuatın müstəqilliyi məsələsinə toxundu. R. Arifoğlu cavabında bildirdi ki, müstəqil mətbuat qərarlarını özü qəbul edən mətbuatdır, harada duracağını özü müəyyənləşdirən mətbuatdır.** Mediada araşdırma yazılarının olmaması ilə bağlı sualı da cavablandıran məruzəçi bu sahənin güclü maliyyə tələb etdiyini xatırlatdı. Bildirdi ki, Azərbaycan mətbuatının bu cür maliyyə imkanı, reklam gəlirləri olmadığından araşdırma jurnalistikası da zəif inkişaf edib.

Müsavat Partiyasında gedən hazırkı proseslərlə bağlı suallara da cavab verən Rauf Arifoğlu qeyd etdi ki, partiyada çəkişmələr ilk gündən mövcud olub: “İndiki Müsavat Partiyası 1989-cu ildə yaranmış Müsavat Partiyasının Türkiyədəki Milli Mərkəzlə danışıqlardan sonra 1992-ci ildə bərpa olunmuş variantıdır. Mən indiki müsavatçılardan 3 il daha çox Müsavat Partiyasında olmuşam. Bunu 5 adam bir yerdə yaratmışıq. Sonra professor Nəsib Nəsibli ilə mən bir yerdə 1991-ci ilin noyabr atında Əbülfəz Elçibəyin yanına getdik, dedik ki, bu partiyanı başqa əllərə verəcəklər. Bizim isə saxlamağa gücümüz çatmır. Bunu siz götürün. O isə İsa bəyə təklif elədi. Biz İsa bəylə görüşdük, danışıqlar nəticəsində anlaşdıq. Artıq fevral ayında beş nəfər AXCP-dən, 5 nəfər də Müsavat Partiyasından bu prosesə başladıq. Sonra biz bu prosesi apardığımız müddətdə iqtidara gəldik. İndi Müsavat Partiyasında olan çəkişmələr ki var, hamısı o zaman da var idi. Bu ziddiyyətlər sonradan ortaya çıxdı - deyə bir şey yoxdur. Üz qabığı dəyişib, ittihamlar dəyişib, amma mahiyyət dəyişməyib. Bu adamlar bir-birini həzm edə bilmir. Azərbaycan siyasəti davam etdikcə də belə olacaq. Bu insanlar Azərbaycan siyasətində müəyyən rol oynayıblar. Bu məsələdə obyektiv olmalıyıq. Ancaq onu da demək lazımdır ki, Azərbaycan müxalifətinin təmsilçiləri risk sevmirlər, çox ehtiyatlıdırlar. 23 il bir müxalifət hakimiyyətə gələ bilmirsə, bunun əsas sorumlusu elə müxalifətdir”.

Baş redaktor belə bir fikir də söylədi: **“Mətbu və informasiya dəstəyi xidmət sektorudur. Burada heç nə parasız olmur, ola bilməz. Dünyada da belədir. Lakin bizim müxalifətin bizə xidmət üçün illərdir para ödəməməsi bir yana, üstəlik, deyir ki, gəl səni minim, məni iqtidara daşı... 20 il sonra deyəndə ki, düş belim ağrıyır, bir az da özün yürü iqtidara. Deyir ki, buna bax e, satılıb...”**

Qarşılıqlı diskussiyalarla keçən tədbirin sonunda iştirakçılar Rauf Arifoğlu ilə birgə xatirə fotosu çəkdirdi.

❑ **Nərgiz LİFTİYEVA**
❑ **Fotolar Məğrur Mərdindir**

YENİ MÜSAVAT
N 177 (6498) 13 avqust 2016

# Qarabağ üçün yeni şans pəncərəsi - Qərbdən yox, Şərqdən!

**Artıq əminliklə söyləmək olar ki, Türkiyə və Rusiya prezidentlərinin Sankt-Peterburq görüşü iki ölkə münasibətləri tarixində yeni bir səhifə açıb. Bir sıra Qərb analitikləri hətta təəccüblə qeyd edirlər ki, münasibətlər 24 noyabr təyyarə insidentində kimi olan səviyyədən də yüksəyə qalxmaq potensialı qazanıb.**



# Rus-türk anlaşması: Suriyadan sonra Qarabağ...

## İki regional gücün dünyanın ən böhranlı məsələsində gözlənilən əməkdaşlığı Güney Qafqaza da inikas edə, bölgənin ən "yaşlı" probleminin həllinə yol aça bilər; **Putinin danışmanı:** "Qarabağ nizamlanmasında Türkiyəyə böyük rol ayrılıb..."

Böyük ehtimalla, belə də olacaq. Çünki barışdan sonra prezident Rəcəb Tayyib Ərdoğanın Rusiya səfərinə 15 iyul hərbi çevriliş cəhdi xüsusi rəng qatmışdı - hansı ki cəhdin arxasında ABŞ-ın durduğu haqda ciddi iddialar var. Əksinə, Rusiya prezidenti ilk saatlardan Türkiyənin legitim hakimiyyətinin yanında olmuş, Putin isə şəxsən Ərdoğana dəstək zəngi etmişdi.

Bunun qarşılığı gecikmədi - Türkiyə lideri də "darbe girişimi"ndən sonra ilk xarici səfərini məhz Rusiyaya etdi. Bu, sözsüz ki, bütövlükdə Qərbə açıq bir mesaj idi. Eyni zamanda Moskva-Ankara münasibətlərində həqiqətən də yeni bir dönəmin başladığının anonsu idi.

İki liderin Peterburq danışıqları kifayət qədər uğurlu hesab edilir. Əlbəttə ki, Rusiya ilə Türkiyə arasında bəzi regional məsələlərlə bağlı diametral fikir ayrılığı var. Daha doğrusu, Peterburqda bağlı qapılar arxasında aparılmış 2 saatlıq danışıqlara kimi belə idi. Həmin məsələlərdən biri və birincisi isə Suriya böhranıdır. Ərdoğan və Putin heç şübhəsiz, bu böhranın aradan qaldırılması üçün ortaq əməkdaşlıq imkanlarını ciddi şəkildə müzakirə ediblər.

Detallar hələ ki açıqlanmır. Ancaq bəzi ümidverici gəlişmələr var. Məsələn, Sankt-Peterburq səfərindən bir gün sonra məlumat yayıldı ki, Türkiyə Suriya ərazisində İŞİD-ə qarşı birgə quru əməliyyatlara başlamaq barədə Rusiyaya sensasion sayılacaq təklif verib. Məlumata görə, rəsmi Moskva təklifi qismən qəbul eləsə də, detallı müzakirə eləmək niyyətindədir.

"Ankara Suriya məsələsində Rusiya ilə fəal əməkdaşlıq eləmək niyyətindədir". Bunu isə dünən "Habertürk" telekanalının efirində Türkiyənin müdafiə naziri Fikri İşık bildirib. Onun sözlərinə görə, belə bir anlaşma Sankt-Peterburqda 9 avqust Ərdoğan-Putin görüşü zamanı əldə olunub. **"Həmin danışıqlarda ölkələrimiz tərəfindən Suriya mövzusunda birgə işlə bağlı baza yaradılması haqda razılığa gəlinib"** - müdafiə naziri qeyd edib.

***

Analitiklər də aradakı ziddiyyətlərə, ilk növbədə də Bəşər Əsədin taleyi, PKK məsələlərində fikir ayrılığına rəğmən, Suriya böhranının həllində Ankara və Moskvanın kompromis əldə etmə şansını yüksək ehtimallı sayırlar. Onların qənaətincə, bu iki dövlətin Suriya məsələsinə birgə təsiri gerçəkdən, həlledici ola bilər.

Bir şeyə şübhə yox ki, Suriya məsələsində İki regional gücün uğurlu əməkdaşlığı Güney Qafqaza da inikas edə, bölgənin ən "yaşlı" problemi hesab edilən Dağlıq Qarabağ ixtilafının həll yolunun açılmasına mühüm töhfə verərdi. Ən azı ona görə ki, artıq ortada bənzər problemlə bağlı işbirliyi təcrübəsi olacaq. Belə bir qənaətin altını həm də ona görə cızmaq istərdik ki, Moskvadan da Türkiyənin bölgədə artan roluna pozitiv dəyər verildiyi haqda siqnallar daxil olmaqdadır.

**"Qarabağ nizamlanmasına dair son intensiv danışıqların gedişində müvəqqəti tarixi kompromis üçün siyasi zəmin formalaşıb və bu prosesdə Türkiyəyə böyük rol ayrılıb".** Musavat.com-un məlumatına görə, bu barədə Rusiyadakı Siyasi Tədqiqatlar Mərkəzinin direktoru, prezident Putinin etibarlı şəxslərindən sayılan Sergey Markov konfliktlə bağlı son danışıqlar prosesini Türkiyə-Rusiya yaxınlaşması fonunda şərh edərkən bildirib.

Onun sözlərinə görə, belə bir kompromis artıq bu il əldə oluna bilər. **"Böyük ehtimalla da bu, hələ 2011-ci ildə hazırlanmış, lakin bəzi səbəblərdən işə düşməmiş "Kazan formulu" əsasında baş tutacaq. Həmin formula əsasən, belə bir mübadilə baş verir: Ermənistan Dağlıq Qarabağ ətrafındakı rayonları Azərbaycana verir - bu rayonlar 7-dir. Başqa yandan, Ermənistan öz ərazisindən keçən tranzit xətlərinə zəmanət alır, həmçinin Ermənistanın və Dağlıq Qarabağın de-blokadasına nail olur. Üçüncü yandan isə həmin rayonların hərbsizləşdirilməsi həyata keçirilir"** - Putinin danışmanı deyib.

**"Bu danışıqlar Rusiya tərəfdən ilk növbədə ATƏT-in Minsk Qrupunun həmsədri olaraq, intensiv şəkildə aparılır. İki digər həmsədr dövlət - ABŞ və Fransa isə öz daxili problemləri ilə bağlı passiv mövqe tutur. Bu dəqiqə onlar Qarabağ hayında deyillər. Türkiyə hələ ki, prosesə aktiv şəkildə cəlb olunmayıb, ancaq anlaşma əldə olunacağı təqdirdə onun iştirakı labüd olacaq. Çünki söhbət Ermənistanın təkcə Azərbaycan tərəfdən deyil, Türkiyə tərəfdən də blokadasının götürülməsindən gedir"** - Markov əlavə edib. Onun fikrincə, məhz bu səbəbdən Türkiyə maraqları əldə ediləcək anlaşma çərçivəsində nəzərə alınmalıdır.

***

Beləliklə, bölgənin, hətta dünyanın ən qanlı və böhranlı məsələsi sayılan Suriya məsələsində Türkiyə və Rusiyanın birgə uğurlu, tandem şəklində hərəkəti Qarabağ üçün də şans pəncərəsi aça bilər.

❑ **Siyasət şöbəsi**

# Rusiya-Ukrayna münasibətləri yenidən gərginləşdi

## **Politoloq:** "Yaxın aylarda Ukrayna və Rusiya münasibətlərinin gərginləşməsinin yeni mərhələsinə qədəm qoya bilər"

**Avqustun 10-dan etibarən Rusiya və Ukrayna arasında münasibətlər gərginləşib. Rusiya tərəfinin yaydığı məlumata görə, Krıma daxil olmağa cəhd edən diversantların iki qrupu ilə baş verən toqquşmalarda iki Rusiya zabiti həlak olub, bir neçəsi yaralanıb. Yayılan məlumatlarda Rusiya Ukraynanın Krıma təxribatçılar göndərdiyini və hücuma hazırlaşdığını iddia edib.**

Kiyev rəhbərliyi isə bu ittihamları təxribat olaraq qiymətləndirib. Digər tərəfdən, Ukrayna dövlət başçısı Petro Poroşenko Krım sərhədi və Ukraynanın şərqindəki təmas xəttində orduya döyüş üçün hazır olmağı da əmr etdiyini bildirib.

Ukraynanın döyüş hazırlığı səviyyəsinə gətirilmiş qoşunlarını Krımla sərhədə yerləşdirməsi cəhdlərinə rəsmi Moskva da cavab tədbirləri düşünür.

"İzvestiya" rus xarici siyasət dairələrindəki mənbəsinə istinadən yazır ki, iki ölkə arasında diplomatik əlaqələrin kəsilməsi məsələsi də müzakirə mövzusudur.

Moskva Kiyevdəki rus səfirliyini bağlaya və bütün diplomatlarını geri çağıra bilər.

Məlumat üçün bildirək ki, Ukrayna hökuməti hələ də yeni rus səfirinin namizədliyini təsdiqləməyib. Prezident Putinin mətbuat katibi Dmitriy Peskov bildirib ki, Moskva əvvəlki kimi yeni səfir təyin edilməsini təklif edir, lakin Kiyev diplomatik əlaqələrin səviyyəsini aşağı salmaq istəyirsə, bu, onun seçimidir.

Son olaylarla bağlı Ukraynanın Təhlükəsizlik Xidməti Donetsk və Luqansk vilayətləri ilə Krım yarımadasında terror təhlükəsinin ən yüksək səviyyəsi olan "qırmızı səviyyə"ni elan edib.

**Baş verənlərlə bağlı "Yeni Müsavat"a politoloq Elxan Şahinoğlu danışıb. O bildirib ki, Krımdakı son hadisə təxribata bənzəyir:** "Çünki Ukraynanın nə marağı var ki, indiki situasiyada Rusiya ilə vəziyyəti daha da gərginləşdirsin? Mümkündür ki, hansısa Ukrayna ordusuna bağlı olmayan qruplar da Krıma müdaxilə etmək istəyib. Poroşenko özü də qeyd edib ki, Ukrayna ordusunun belə bir əməliyyatı yoxdur. Ancaq hər halda, bu faktdır ki, atışma olub və iki nəfər də Rusiya tərəfindən dünyasını dəyişib. Bu o deməkdir ki, Rusiya ilə Ukrayna arasındakı münasibətlər daha da gərginləşəcək. Hadisələrdən sonra "Normand dördlüyü" çərçivəsində görüş də yəqin ki, baş tutmayacaq. Ən nəhayət, xəbərlərə görə, Rusiya artıq Ukraynada diplomatik münasibətlərin ləğvi haqqında da müəyyən fikirlər ortaya atır. Bütün bunlar ondan xəbər verir ki, yaxın aylarda Ukrayna və Rusiya münasibətlərinin gərginləşməsinin yeni mərhələsinə qədəm qoya bilər".




**Politoloq bildirib ki, bu mərhələdə Rusiya əlindən gələni edəcək ki, Ukrayna zəifləməkdə davam etsin:** "Donbasda müəyyən təxribatlar həyata keçirilə bilər. Onsuz da orada bu gün də atəşkəsə riayət olunmur. Hər an atəşkəsin pozulmasının, növbəti dəfə qarşıdurmanın şahidi ola bilərik. Bu yaxınlarda separatçıların iddiasına görə, guya onların liderlərinin birinə də sui-qəsd təşkil olunub. Bu, eləcə də Krımdakı toqquşmalar hamısı ondan xəbər verir ki, Donbasda yenidən gərginlik arta bilər. Bütün bunların müqabilində inanmıram ki, Amerika tərəfindən Rusiyaya qarşı hər hansı bir sanksiyalar artırılsın. Amerika hazırda keçiriləcək prezident seçkiləri ilə məşğuldur. Eyni zamanda Rusiya ilə də münasibətlərində soyuqluq var. Bu xüsusdan bir az daha gərginliyə getməzlər. Çünki Suriya mövzusunda da iki dövlət arasında müəyyən dialoq var. Sadəcə olaraq, baş verənlərə ABŞ seyrçi yanaşsa da, əslində Ukraynanın mövqeyini dəstəkləyir. Rusiya gözləyirdi ki, bəzi Qərb ölkələri Krımda baş verən son olayları heç olmasa bir qədər pisləyərlər. Lakin heç bir ölkə buna qarışmadı. Hamı da bu hadisəyə şübhə ilə yanaşır və daha çox təxribat olduğuna gümanlar var. Yenidən müharibə alovlanarsa, Donbasda toqquşmalar başlayarsa, mümkündür ki, Rusiyaya qarşı sanksiyalar bir az daha sərtləşsin. Çünki hər kəs bilir ki, Rusiya separatçıların arxasında olmasa, onlar duruş gətirə bilməzlər".

Onu da qeyd edək ki, ABŞ, Rusiya Federasiyasını və Ukraynanı Krım ətrafında gərginliyin artmasına gətirib çıxara biləcək hər hansı bir addımdan çəkinməyə çağırır.

Bu haqda məlumat ABŞ Dövlət Departamentinin rəsmi saytında yer alıb. Brifinq zamanı bu haqda danışan ABŞ Dövlət Departamentinin rəsmi nümayəndəsi Elizabet Trüdo gərginliyi azaltmağın və danışıqlar masasına oturmağın vaxtı olduğunu açıqlayıb.

Xatırladaq ki, 2014-ci ildə Ukraynanın şərqindəki Rusiya tərəfdarı üsyançılar və ordu arasında başlayan qarşıdurmalar Krımın Rusiya tərəfindən ilhaq edilməsi ilə nəticələnmişdi. Bu hadisələrdən sonra Moskvanı Ukraynadakı üsyançılara birbaşa dəstək verməkdə günahlandıran ABŞ və Avropa İttifaqı Rusiyaya iqtisadi sanksiyalar tətbiq etməyə davam edir.

❑ **Əli RAİS**

# "Beynəlxalq Bank işi"ndən yeni xəbərlər

## Zamirə Hacıyevanı axtaran varmı?; Cahangir Hacıyevin vəkili ittihamların əsassız olduğunu deyir

**Azərbaycan Beynəlxalq Bankının keçmiş rəhbəri Cahangir Hacıyevin həyat yoldaşının beynəlxalq axtarışa verilməsinə dair məhkəmə qərarı icra olunmamış qalıb. Virtualaz.org xəbər verir ki, beynəlxalq polis təşkilatı "İnterpol" Zamirə Hacıyevanın axtarışı ilə məşğul deyil və onun adı təşkilatın axtarılanlar siyahısında yoxdur. Xəbər verildiyi kimi, Zamirə Hacıyeva barəsində həbs-qətimkan tədbirinin seçilməsi və onun beynəlxalq axtarışa verilməsinə dair qərarı bu il iyunun 1-də Bakının Nərimanov Rayon Məhkəməsi çıxarıb. Qərara əsasən, Zamirə Hacıyeva Beynəlxalq Bankdan 2009-2015-ci illər ərzində bir neçə kredit kartı ilə üst-üstə 18 milyon manat çıxararaq şəxsi ehtiyacları üçün xərcləyib.**

Bura xanım Hacıyevanın Avropa ölkələrində lüks istirahət xərcləri, gözəllik salonlarının xidmətlərindən istifadə etməsi, təyyarə biletləri və s. daxildir. Qərarda deyilirdi ki, Zamirə Hacıyeva 2014-cü il noyabrın 15-də Bakı aeroportundan "London istiqamətində" ölkəni tərk edib və həmin vaxtdan Azərbaycana qayıtmayıb. Göründüyü kimi, Z.Hacıyevanın barəsində çıxarılmış beynəlxalq axtarış qərarı formal xarakter daşıyıb.



**Zamirə Hacıyevanın vəkili Aqil Layıcov "Yeni Müsavat"a açıqlamasında müvəkkilinə qarşı 18 milyon manatlıq mənimsəmənin əsassız olduğunu bildirib. Deyib ki, hazırda Z.Hacıyeva ilə bağlı istintaq dayanıb və həbs-qətimkan tədbirinin ləğvi üçün şikayət veriblər:** "Şikayətimizə nə vaxt baxılacağı haqda məlumat verilməyib".

Qeyd edək ki, Cahangir Hacıyevin barəsində də ibtidai istintaq yekunlaşıb. Cahangir Hacıyev və digər 7 şəxsin cinayət işi üzrə ittiham aktı Azərbaycan Baş Prokurorluğu tərəfindən 19 iyul 2016-cı il tarixində təsdiq edilərək baxılması üçün aidiyyəti üzrə Bakı Ağır Cinayətlər Məhkəməsinə göndərilib. C.Hacıyev və digər 7 nəfər Cinayət Məcəlləsinin 179.3.1, 179.3.2 (mütəşəkkil dəstə tərəfindən külli miqdarda mənimsəmə), 308.2 (vəzifə səlahiyyətlərindən sui-istifadə ağır nəticələrə səbəb olduqda), 309.2 (vəzifə səlahiyyətlərini aşma ağır nəticələrə səbəb olduqda), 313-cü (vəzifə saxtakarlığı), 228.1 və 228.4-cü (qanunsuz olaraq silah, onun komplekt hissələrini, döyüş sursatı, partlayıcı maddələr və qurğular əldə etmə, başqasına vermə, satma, saxlama, daşıma və gəzdirmə) maddələri ilə ittiham olunur.

**Vəkil Cahangir Hacıyevin işi üzrə ittiham aktının ziddiyyətli məqamlarla zəngin olduğunu da diqqətə çatdırıb:** "Həddən artıq səthi bir araşdırma aparıblar. Yazırlar ki, "filankəs filankəsdən kredit alıb və qaytarmayıb". Bu məsələnin Cahangir Hacıyevə hansı şəkildə aidiyyətinin olduğu göstərilmir. Heç kim demir ki, bu krediti Cahangir Hacıyev mənimsəyib və ya mən krediti şəxsən Cahangir Hacıyevdən almışam. Bir nəfərin belə bu haqda ifadəsi yoxdur".

Vəkil müvəkkilinə qarşı ittihamların, sadəcə, ümumilikdə Beynəlxalq Bankla bağlı yayılan məlumatların araşdırılması zərurətində irəli gəldiyi qənaətində olduqlarını, məhkəmədə ittihamın əsassızlığının üzə çıxacağı söyləyib.

**❑ E.MƏMMƏDƏLİYEV**

# Deputatın sələmçilik fəaliyyətinin gizlinləri ortaya çıxır

## Rüfət Quliyevin hansı əmlakları var?



**Üç dəfə Lənkərandan deputat olan Rüfət Quliyevin sələmçiliyi haqda yazmışdıq. Redaksiyamıza daxil olan məlumata görə, R.Quliyev "European Tobacco" şirkətinin rəhbəri olmaqla bərabər, sələmçilik biznesi ilə məşğuldur. Aldığımız məlumata görə, Rüfət Quliyev 40 illik dostu Namiq Səfərovun ailə üzvlərinə qarşı etdiklərini bir neçə şəxsə qarşı da edib. Ən müxtəlif sənədlər əsasında onların əmlaklarını əllərindən alıb. Bu yolla deputatın bir xeyli əmlaklara sahib olduğu haqda xəbərlər var.**

Deputat Lənkəranda əhəmiyyətli dövlət obyektlərini özəlləşdirib. İddia edilir ki, Haftoni çay fabriki Quliyevin əmisi oğlu Rəşid Quliyevin adına rəsmiləşdirilib. Lənkəran çay fabrikini əmisi Fərman Quliyevin adına keçirib. Lənkəranın mərkəzində "Alov" kompleksi fəaliyyət göstərir. Kompleksdə restoran, şirniyyat evi, dönərxana yerləşir. "Doqquz mərtəbə" adlanan binanın 1-ci mərtəbəsini tam əhatə edən aptеki deputat biznes məqsədilə icarəyə verib. Həmin yer indi "Boranı" restoranı kimi xidmət göstərir. Sarı qəsəbəsində üzümçülük kompleksi və pivə zavodu, Sütəmurdov kəndində "AzerAqua" mineral su zavodu da var. R.Quliyevin fəaliyyətindən narazılıq edən seçicilər qeyd edirlər ki, deputat ailəsinin və qohumlarının həyatını firavanlaşdırmaqla məşğuldur. Politika.az deputatın sabiq milli təhlükəsizlik naziri Eldar Mahmudovla işbirliyində olması haqda xəbər yayıb.

Xatırladaq ki, Rüfət Quliyevin sələmçiliklə məşğul olmasına mətbuatda və ictimaiyyətdə sərt təpki verilib. Deputat 2011-ci ildə iş adamı Namiq Rahib oğlu Səfərova 10 faizlə külli miqdarda sələmə borc verib. Sonradan isə borclu dünyasını dəyişdiyindən onun ailəsini - Nuranə Mirzəli qızı Səfərovanı məhkəməyə verərək sələmə verdiyi 82 min dollar qarşılığında 246 min dollar faiz tələb edir. Deputatın iddiasına avqustun 18-də Səbayel Rayon Məhkəməsində hakim Zaur Əliyevin sədrliyi ilə baxılacaq.

**❑ E.HÜSEYNOV**

# Qanunlar Xəzəri hasarlayan məmurlara "bata bilmədi"

## 2003-cü ildən bu yana dənizin hasarlarına görə qanun 5 dəfə dəyişib, amma indiyədək bir hasar uçurulmayıb, bir məmur belə cəzalandırılmayıb

**2016-cı ilin soyuq yanvarında Milli Məclisin plenar iclasında İnzibati Xətalar Məcəlləsinə dəyişiklik layihəsi müzakirəyə çıxarıldı. Dəyişikliklərdən biri də Xəzərin Azərbaycan sahilində gediş-gəlişi məhdudlaşdıranların cəzalandırılmasını nəzərdə tuturdu. Layihə səsverməyə çıxarıldı və qəbul olundu. Dəyişikliyə əsasən, dövlətin iqtisadi və ya təhlükəsizlik mənafelərinin təmin edilməsi ilə əlaqədar müvafiq icra hakimiyyəti orqanının qərarı olmadan həmin torpaq sahəsində dəniz sahilinə gediş-gəlişin məhdudlaşdırılmasına görə fiziki şəxslər 4 min, vəzifəli şəxslər 8 min, hüquqi şəxslər isə 40 min manat miqdarında cərimə olunmalı idilər. Eyni zamanda, xətaların il ərzində inzibati tənbeh alan şəxs tərəfindən təkrar törədilməsinə görə fiziki şəxslər 5 min, vəzifəli şəxslər 10 min, hüquqi şəxslər isə 50 min manat miqdarında cərimə olunmalı idilər. Ötən 7 ay ərzində bu qanuna əsasən cərimələnən 1 şəxs belə yoxdur!**

Qəbul olunmuş qanun dövlətin iqtisadi və ya təhlükəsizlik mənafelərini təmin etməklə yanaşı, isti yay günlərində dənizə çatmaq üçün yol axtaran vətəndaşın da üzünə dənizin qapılarını açmalı idi.



Bu qanunun qəbulundan sonra Xəzər sahilindəki on kilometrlərlə uzanan hasarlardan 1 daş belə sökülməyib!

7 ay əvvəl qanunun qəbulundan sonra belə fikir formalaşmışdı ki, Xəzərin sahilyanı ərazilərini əhatə edən hasarlar sökülləcək. Ən azı hasarlar dənizə gedib gəlmək üçün epizodik də olsa sökülləcək. Hətta mətbuatda "Xəzəri hasarlayanlar! Hasarları özünüz sökməli olacaqsınız" kimi başlıqlar da peyda oldu. Çox təəssüf ki, bu qanun da vətəndaşın xeyrinə olan bir çox qanunlar kimi ölü doğulmuş uşağa çevrildi. Qanun vətəndaşa 2016-cı ilin yayında Xəzərin sahilinə çəkilən hasarları aşmaqda kömək etmədi. Bu hasarlara qoyulan darvazaları da vətəndaşın üzünə aça bilmədi.

Xəzərin Abşeron yarımadası hissəsindəki sahillərinə sıravi azərbaycanlının çatması ildən-ilə daha da qəlizləşir. Türkanda müdafiə sənayesi naziri Yavər Camalov, Şüvələndə AZAL prezidenti Cahangir Əsgərov, Türkanda SOCAR-ın vitse-prezidenti Mikayıl İsmayılov tərəfindən 5-6 metr hündürlüyündə, bir neçə kilometr uzunluğunda Xəzər sahili hasarlatdırılıb. Dəbdəbəli darvazalı hasarlar Nardaran, Bilgəh, Pirşağı, Corat və digər ərazilərdən də vətəndaşın dənizə çatımlılığının qarşısını alır. Sadə vətəndaşı hakimiyyətdən narazı salan sahilboyu hasarları çəkənlər də məhz hakimiyyətdə olanlardır.

Sovet dövründə pioner düşərgələrinin sayı-hesabı olmayan Pirşağı qəsəbəsindəki yaşı bilinməyən çimərlik prezidentin imzaladığı, qanunda hasarların dəniz sahilindən 20-50 metrlik aralıda olması haqda qadağanın tətbiqindən sonra birdəfəlik vətəndaşların üzünə bağlanıb. Məmurlar bu qadağanı, sadəcə, saya salmırlar. Bir neçə kilometr uzunluğu olan daş hasar sahilə 20 metr qalmış bitir və dəmir borularla dənizin içinə qədər yol bağlanır. Pirşağıda qanunun yanından belə ötüb keçiblər. Yəni qanunda daş hasardan söhbət gedirsə, Pirşağıda dəmir borunu hasara çeviriblər. Yəni məmurlarımızın qanunların yanından ötmək üçün fantaziyaları bu qədər güclüdür. Halbuki həmin ərazilər 100 illərlə xalqın üzünə həmişə açıq olub.

Kimdir bu adamlar? Kimin adamlarıdır? 15-20 hektarlıq və daha artıq sahilboyu ərazini hasarlayan, vətəndaşın üzünə bağlayan əksər vaxtlarda harınlamış məmur tayfasının nümayəndələridir. Fakt odur ki, dənizə darvaza qoyub onu hasarlarla xalqın üzünə bağlayıblar.

Qanunlar isə bu hasarları vətəndaşın üzünə açmaqda acizdir.

**2003-cü il yanvarın 13-də sabiq prezident Heydər Əliyev "Xəzər dənizi sahillərindən istifadənin tənzimlənməsinə dair bəzi tədbirlər haqda" sərəncam imzalamışdı. Sərəncamın imzalanmasının səbəbi kimi vətəndaşların Azərbaycan Prezidentinin İcra Aparatına daxil olan çoxsaylı müraciətləri göstərilirdi. Sərəncamda qeyd olunurdu ki, bir sıra yerlərdə Xəzər dənizinin sahilboyu zolaqları altında olan torpaqlar yerli əhalinin maraqları və ictimai ehtiyacları, habelə həmin sahələrin dövlətin müstəsna mülkiyyətində olması nəzərə alınmadan ayrı-ayrı fiziki və hüquqi şəxslərin istifadəsinə və icarəsinə verilib.** "Həmin torpaq sahələrində bağ evləri və digər obyektlər inşa edilib, dənizin içinədək hündür hasarlar çəkilib. Bununla da əhalinin dəniz sahilinə gediş-gəlişi xeyli dərəcədə məhdudlaşdırılıb. H.Əliyev vətəndaşların Xəzər dənizi sahillərində çimərlik və istirahət hüququnun maneəsiz gerçəkləşdirilməsini təmin etmək məqsədi ilə Nazirlər Kabinetinə, Ekologiya və Təbii Sərvətlər Nazirliyinə, Dövlət Torpaq Xəritəçəkmə Komitəsinə, Bakı və Sumqayıt şəhərləri, Xaçmaz, Şabran, Siyəzən, Xızı, Abşeron, Salyan, Neftçala, Lənkəran, Masallı və Astara rayonlarının icra hakimiyyəti başçılarına tapşırıb ki, Xəzər dənizi sahilinin 130 metrlik zolağında yerləşən torpaqların inzibati və ya məhkəmə qaydasında, hüquqi və fiziki şəxslərin istifadəsindən və icarəsindən geri alınmasını təmin etsinlər. Heydər Əliyevin sərəncamından 5 il sonra Milli Məclis dəniz sahilindəki 130 metrlik zolaq "20-50" metrlik zolaq sözləri ilə əvəzlədi. Prezident İlham Əliyev 2008-ci il dekabrın 2-də "Torpaq islahatı haqda" Qanuna, Torpaq Məcəlləsinə və İnzibati Xətalar Məcəlləsinə dəyişikliklər və əlavələr edilməsi barədə qanun imzaladı. Qanunda artıq dəniz sahilinin dövlət məqsədləri üçün istifadəsinə icazə verildi. Həmin sənəddə deyilir ki, qanundan "dövlət məqsədləri üçün" sözləri çıxarılsın. "İstifadəyə və ya icarəyə verilməsi barədə qərar qəbul edilmiş Xəzər dənizinin Azərbaycana mənsub olan bölməsinin sahilboyu 20-50 metrlik zolağının altında olan torpaq sahəsi müvafiq icra hakimiyyəti orqanının icazəsi əsasında dənizin sahilinə gediş-gəlişi məhdudlaşdırmamaq şərti ilə hasara alınma yolu ilə və ya digər üsullarla bağlanıla bilər".

**Bu ilin soyuq yanvarında qəbul olunan qanun hasarlara gediş-gəliş üçün yolların açılmasını təmin etməli idi. Amma etmədi...**

**❑ E.MƏMMƏDƏLİYEV**

YENİ MÜSAVAT
N 177 (6498) 13 avqust 2016

# Dövlət Departamentinin hesabatına deputatdan sərt reaksiya

## YAP-çı deputat Bəxtiyar Sadıqov Departamenti reallığı təhrif etməkdə suçladı



**ABŞ Dövlət Departamentinin dünya ölkələrində din azadlığına dair illik hesabatının Azərbaycanla bağlı hissəsində konstitusiya ilə vətəndaşlara dini inanclarını ifadə etmək hüququ verildiyi, lakin hökumətin xüsusilə də qeyri-ənənəvi hesab etdiyi dini qrupların üzvlərinin din azadlığını məhdudlaşdırdığı deyilir. Sənəddə bildirilir ki, rəsmilər toplaşma və ifadə azadlığı kimi fundamental azadlıqları məhdudlaşdırıb və dini qruplar da daxil olmaqla, vətəndaş cəmiyyəti üçün fəaliyyət məkanını daraldıb.**

Hesabatda deyilir ki, etibarlı rəqəmlər olmasa da, bəzi yerli müşahidəçilərin siyasi məhbus hesab etdiyi dini fəalların sayı 2014-cü ildə ilə 52 müqayisədə hazırda 46 kimi qeyd edilir. Bu rəqəmlərin təxmini olduğu və il ərzində saxlanılan və ya azad edilən dini fəalların sayı ilə bağlı etibarlı rəqəmlərin olmadığı bildirilir. Rəsmilərin azlıqda olan Yehovanın Şahidləri və sələfilər dini qruplarının üzvləri və din xadimi Fətullah Gülənin davamçıları olduğundan şübhələnilən şəxslərin toplaşdığı yerlərdə reydlər keçirdiyi deyilir. Sənəddə Nardaran hadisələrində həbs edilənlər barədə də söz açılır.

Azərbaycan iqtidarı Dövlət Departamentinin Azərbaycanı tənqid etməsindən narazı qalıb.

**Hakim Yeni Azərbaycan Partiyasından olan deputat Bəxtiyar Sadıqov "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, Dövlət Departamenti Azərbaycanla bağlı yenə də reallıqdan uzaq, qeyri-obyektiv yanaşma ortaya qoyub:** "Çox təəssüf ki, qeyri-obyektiv yanaşma yenə də özünü göstərir. Azərbaycan din azadlığı, multikulturalizm sahəsində dünyada tolerantlıq nümunəsi kimi göstərildiyi bir vaxtda ABŞ Dövlət Departamentinin belə bir qiymətləndirməyə yol verməsində qərəz açıq görünür. Azərbaycan prezidenti 2016-cı ili Azərbaycanda multikulturalizm ili elan edib. Azərbaycanda bütün dinlərə hörmətlə yanaşıldığını Azərbaycanda tolerantlıq mövzusunda keçirilən çoxsaylı beynəlxalq tədbirlərdə iştirak eləyən tanınmış ictimai-siyasi xadimlər, din xadimləri dəfələrlə bəyan ediblər. Onlar Azərbaycanı öz ölkələri və dünya üçün nümunə göstərirlər. Bu nəticəyə həmin insanlar Azərbaycandakı vəziyyəti dəqiq müşahidə etdikdən, Azərbaycandakı müxtəlif dinlərin təmsilçiləri ilə, din xadimləri ilə görüşüb onların fikrini dinlədikdən sonra gəlirlər. Onlar əmin olurlar ki, doğrudan müxtəlif konfessiyalara məxsus olan din nümayəndələri Azərbaycanda bir-biri ilə dostluq, əməkdaşlıq şəraitində yaşayırlar. Azərbaycanda heç kimə dininə, milliyyətinə görə ayrı-seçkilik edilmədiyi hər kəsə aydındır. Bunun sübuta belə ehtiyacı yoxdur. ABŞ Dövlət Departamentinin bunu etiraf etməməsini, tərsini görməsini reallığı görməməzlikdən gəlmək kimi qiymətləndirirəm. Sənəddə ad çəkmədən qeyd edilir ki, bəzi dini qruplara qarşı hökumət addımlar atır və sair. Halbuki Azərbaycanda qanunla fəaliyyət göstərən heç bir dini qrupa qarşı heç bir addım atılmır. Bəlkə o sənədi hazırlayanlar istəyirlər ki, İŞİD sıralarına qoşulub gedib hansısa ölkələrdə döyüşən adamlara, hansısa radikal dini cərəyanlara Azərbaycan qanunları göz yummalıdır? Biz Azərbaycanda din pərdəsi altında zorakılığa çağıran, silahlanan, terroru təbliğ eləyən qrupların və şəxslərin fəaliyyətinə qarşı həmişə olmuşuq, bundan sonra da onların qanunsuz əməllərinin qarşısını alacağıq. Biz nəyin necə olduğunu bilirik. Bizim üçün ölkədə sabitliyi saxlamaq çox vacibdir. Bütün dünya bilir ki, İŞİD-in İslam dininə əslində heç bir aidiyyəti yoxdur. İslam sülh dinidir, rəhmli olmağı təbliğ edən dindir".



**B.Sadıqov qeyd etdi ki, Azərbaycan dövləti öz ərazisində qanuni fəaliyyət göstərən, qanunlara əməl edən bütün dini qrupların fəaliyyətinə şərait yaradır, heç kimi dini baxışlarına görə sıxışdırmır. Azərbaycanda bu gün katoliklər, pravoslavlar, yəhudi dininə sitayiş eləyənlər, alban kilsəsinin nümayəndələri və digərləri üçün dini sitayiş yerləri təmin olunub:** "Belə olduğu halda Azərbaycanda dini qrupların sıxışdırılmasından danışmaq ədalətli görünmür. Həqiqətə uyğun olmayan hesabatlar həmin hesabatların özünü hörmətdən salır. Yaxşı olar ki, ABŞ Dövlət Departamenti işğalçı Ermənistanın bir milyon müsəlmanı öz yurdundan didərgin salmasını və işğal etdiyi Azərbaycan torpaqlarındakı dini abidələri, məscidləri dağıtmasını öz hesabatında yazaydı".

**Qeyd edək ki, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin məlumatına əsasən, Azərbaycan əhalisinin 96 faizini müsəlmanlar təşkil edir. Bunların 65 faizi şiə, 35 faizi isə sünni müsəlmanlardır. Ölkə əhalisinin dörd fazini rus və gürcü pravoslav kilsəsi və erməni apostol kilsəsinin üzvləri, molokanlar, xristianlar, yəhudilər və bəhailər təşkil edir. (amerikaninsesi.org)**

❑ Etibar SEYİDAĞA

# Putin Prezident Administrasiyası rəhbərini dəyişdi-Vayno kimdir?

## Sergey İvanovu Anton Vayno əvəz edib

**Rusiya prezidenti Kreml administrasiyasının rəhbəri Sergey İvanovu vəzifəsindən azad edib.**





Virtualaz.org "İnterfaks"a istinadən xəbər verir ki, Putinin sərəncamına əsasən Sergey İvanov prezidentin ekologiya və nəqliyyat məsələləri üzrə xüsusi nümayəndəsi vəzifəsinə təyin olunub. Xüsusi xidmət generalı Sergey İvanov Putinin ən yaxın kadrlarından biri idi.

Rusiya dövlət başçısının digər sərəncamına əsasən Anton Vayno Prezident Administrasiyasının yeni rəhbəri təyin olunub.

Rusiya prezidenti bildirib ki, onun namizədliyini Sergey İvanov irəli sürüb.

Virtualaz.org Anton Vaynonun bioqrafiyasına dair bəzi məlumatları çatdırıb. O, 1972-ci ildə Estoniyanın paytaxtı Tallində anadan olub. 1996-cı ildə MQİMO-nu bitirib. Rusiyanın Yaponiyadakı səfirliyində, XİN-də işləyib. 2003-cü ildə Prezident Administrasiyasına işə keçib və protokol xidməti İdarəsinə təyin olunub. Bu idarədə müxtəlif vəzifələr tutub.

Putin prezident postunu Dmitri Medvedyevə verib baş nazir postuna keçəndə Anton Vayno Nazirlər Kabineti Aparatına təyin olunub, daha sonra aparat rəhbərinin müavini, baş nazirin protokol xidmətinin rəhbəri olub. 2012-ci ildə yenidən Putinlə Kremlə qayıdıb və Prezident Administrasiyasının rəhbərinin müavini təyin edilib. İndiyə qədər həmin vəzifədə işləyirdi.

Anton Vaynonun atası Eduard Vayno SSRİ-nin Yaponiyadakı ticarət nümayəndəsi olub. 1985-1990-cı illərdə SSRİ-nin "Avtopromimport" birliyində işləyib, direktor müavini olub. SSRİ-dən avtomobil texnikasının ixracına nəzarət edib. 2003-2007-ci illərdə "Avtovaz"ın baş direktoru, prezidentinin müşaviri işləyib. Hazırda "Avtovaz"In xarici əlaqələr üzrə vitse-prezidentidir.

Anton Vaynonun babası da sadə adam olmayıb. Karl Vayno 1978-1988-ci illərdə Estoniya Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi işləyib. Estoniyada etirazların başlamasından sonra vəzifəsindən çıxarılıb, Moskvaya, Sov.İKP MK-da vəzifəyə təyin olunub. Son illərə qədər Moskvada yaşayırdı.

# Ağalarovun şirkəti batır

## "Crocus İnternational" şirkətinə qarşı müflisləşmə iddiası qaldırılıb



**Rusiyada məşhur azərbaycanlı oliqarx Araz Ağalarovun "Crocus İnternational" şirkətinə qarşı müflisləşmə iddiası qaldırılıb.**

Virtualaz.org xəbər verir ki, bu barədə RAPSİ (Rusiyanın Məhkəmə və Hüquqi İnformasiyalar Agentliyi) xəbər verir. Xəbərə əsasən, Stavropolda qeydiyyatdan keçmiş "Kron" ASC adlı şirkət Moskva vilayətinin Arbitraj Məhkəməsinə biznesmen Araz Ağalarovun "Crocus Group" şirkətlər qrupuna daxil olan "Crocus İnternational" Səhmdar Cəmiyyətinin müflis elan edilməsi tələbi ilə iddia qaldırıb. İddiaya baxılması tarixi hələ müəyyən edilməyib.

"Kron" ASC çoxprofilli şirkətdir, alkaqollu içkilərin topdansatışından tutmuş avtomobil texnikasına, ən müxtəlif avtomobil texnikasına, avadanlıqlara qədər bir çox malların topdansatışı ilə məşğul olur. Şirkətin "Crocus İnternational"ın müflis edilməsini niyə tələb etdiyini dəqiqləşdirmək mümkün olmayıb. Ehtimal olunur ki, Ağalarovun şirkətinin "Kron" ASC qarşısında hansısa borc öhdəliyi var.

Rusiyada müflisləşmə haqda yeni qanuna görə, kreditorlar borcluların müflif elan edilməsinə məhkəmə yolu ilə nail ola bilsə onun əmlakı üzərində sərəncam vermək hüququ qazanır.

"Crocus" şirkətlər qrupu Rusiyada üst-üstə 4 milyon kvadratmetrdən çox sahəyə malik obyektlər tikib. Şirkətin obyektləri arasında çoxfunksiyalı "Crocus City" kompleksi, "Crocus Expo" beynəlxalq sərgi mərkəzi, "Crocus City Hall" konsert mərkəzi və s. obyektlər var. Hazırda şirkət 2018-ci il Dünya Çempionatına hazırlıq çərçivəsində Rostovda və Kaliningradda iki futbol stadionu tikir.

YENİ MÜSAVAT
N 177 (6498) 13 avqust 2016

# Azərbaycanın Rusiya və İranla birliyinə ABŞ necə yanaşacaq?

## Zahid Oruc: "Bu, Amerikanın xoşuna gəlməyəcək, amma bunun günahı bizdə deyil"

**Bölgədə Azərbaycan-Türkiyə-İran-Rusiya yaxınlaşması prosesi başlayıb. Dünya nəhəngi ABŞ-ın Türkiyə və Rusiya ilə münasibətlərinin gərgin olduğu bir vaxtda Azərbaycanın onların sırasında yer alması Vaşinqtonun necə qarşılayacağı maraq doğurur.**

Bu mövzuda fikirlərini öyrəndiyimiz Milli Məclisin deputatı Zahid Oruc bildirdi ki, Azərbaycanın region ölkələri ilə münasibətləri yaxşılaşdırması Qərbə qarşı deyil və belə qəbul edilməsi doğru olmazdı: "Azərbaycan bir-biri ilə münasibətlərində təhlükəli müstəvi olan dövlətlərin ələqələrinə qatılmışmı olur? Regional miqyasda əməkdaşlıq formatı bərqərar eləyərkən, bu avtomatik olaraq başqalarının düşmənçiliyini davam etdirməkmi, yaxud da kiminsə müttəfiqinə çevrilməkmi anlamına gəlir? Bu suallara cavab vermək üçün məsələni bir az da genişləndirmək gərəkdir. Ölkəmiz əslində xarici siyasət xəttinə görə qardaş Türkiyəyə heç vaxt problemlər yaratmayıb. Hər hansı bir dövlətlə düşmənçiliyimiz Türkiyəni çətin seçimlər qarşısında qoymayıb. Halbuki əksinə, Türkiyə Azərbaycan üçün strateji müttəfiq qardaş ölkə olmağına rəğmən son on illər ərzindəki siyasətində kəskin reveranslar etdikcə, Azərbaycanı bir sıra hallarda çətin duruma salıb. Xüsusilə, İraillə məlum son siyasi toqquşmasından sonra əlaqələrin dayandırılması fonunda Azərbaycan İsraillə münasibətlərini kəsmədi. Yaxud da Azərbaycan ABŞ-ın İrana və yaxud İranın ABŞ-a cəbhəsində əlinə silah alıb kiminsə xeyirinə vuruşmadı. Həmçinin Türkiyə-Rusiya əlaqələri ən kəskin dövrünü yaşayanda Azərbaycan üzləşdiyi çətinlikləri tənzimləyə bildi. Mühüm ötürücü naqil kimi bu gərginlikləri özündən keçirdi və hər hansı bir ölkənin qəzəbinə də tuş gəlmədi. Adama belə gəlir ki, indi ABŞ-ın özü vaxtilə Azərbaycanın seçdiyi modelə gəlib çıxır. Türkiyə İsraillə münasibətlərini yaxşılaşdırmaqla sanki Azərbaycanın burada təsirini, müəyyən qədər qoruyub saxladığı xətti təkrar gəlib davam etdirmiş oldu. Beləliklə, sanki biz Türkiyəni müxtəlif qalmaqallardan xilas etdik. Eləcə də beynəlxalq dairələrin hazırkı dönəmdə Rusiya-ABŞ, İran-ABŞ, Qərb-ABŞ-Rusiya formatındakı fəal toqquşmalar fonunda yeni xətlər uğrunda savaş gedir. Bölgə uğrunda gedən müharibədə Azərbaycan başqa məkanlarda toqquşan dövlətlərin sanki ortaqlıq mərkəzini yarada bilib. Ona görə də biz 1990-cı illərin emosional xarici siyasət kursunu tərk etmişik. Həqiqətən də bizə yaxşı mənada bir ingilis siyasəti lazımdır. Lakin bu, heç bir halda simasızlıq, etibarsızlıq və sair kimi anlama gəlmir. Hörmətli Ramiz Mehdiyevin sonuncu kitabında İlham Əliyevin xarici siyasətini xarakterizə edərkən "kişi sifətli xarici siyasət" termini işlədib. Çox uğurlu yanaşmadır".



Deputat xatırlatdı ki, əslində Azərbaycan bu müddət ərzində Rusiyanın əleyhinə hansısa məxfi əməliyyatlara girərək ona xəyanət planlarında iştirak etməyib. Türkiyə barəsində də ümumiyyətlə bunu açmaq olmaz. Azərbaycan o cümlədən ABŞ-la da münasibətləri qoruyub saxlamağa çalışıb: "Biz region ölkələri ilə münasibətləri mütləq qoruyub saxlamalıyıq. Çünki onlarla humanitar, iqtisadi, siyasi, tarixi əlaqələrimiz var. Rusiyada iki milyon, İranda 25 milyon soydaşımız bizim siyasətimizdə nəzərə alınır. Bir yandan isə Qərbin də texnolojisi, innovativ proqramları, böyük siyasi gücü var, hüquqi yüksək standartları var. Ona görə hesab edirəm ki, biz hansı istiqamətə getməliyik sualı o qədər da tam olmayan suladır. Həmişə düşünmüşəm ki, biz qeyd oluna bütün tərəflərlə siyasət qurmalıyıq. Bir çoxları deyə bilər ki, Şimal-Qərb layihəsi Bakı-Tbilisi-Ceyhan layihəsi ilə necə dinc yanaşı yaşayacaq? Niyə bu sual qoyulur. Ona görə ki, biri real Qərb layihəsidir və Rusiyanı 1990-cı illərin ortalarında neft layihələrindən vurub çıxarmağı qarşısına niyyət qoymuşdu. Biz hətta o dövrdə də Rusiya ilə konfliktə getmək istəmirdik.

Ən azı onu deməliyik ki, Qərb dövlətləri üçün Əliyev, Putin və Ruhani görüşünün arxa planında hansı məqsədlər yaşadığını təxmin eləmək o qədər çətin deyil. Regionda Ermənistan daxil bütün kommunikasiya xətlərini Qərb öz inhisarına daxil etmək istəyərdi. Çin də qlobal oyunçudur, Avropa da, ABŞ da. Rusiyanın İranla bölgəni mənimsəmək və uzun nöqtələrdən yükdaşımaları nəzarətə götürmək istəyini çox da ruh yüksəkliyi ilə qarşılamayacaq. Bilmirəm bundan sonra hansısa şantajlar, nə dərəcədə təpkilər olacaq. Amma İranın, Rusiyanın və Azərbaycanın qol qoyduğu layihələr bölgədə ən azı yaxşı bir balans yaradır. Qərb özü üçün burda işlək mühit əldə edibsə, düşünmürəm ki, Ukraynada və digər nöqtələrdə yürütdüyü taktikanı Qafqaza daşımaq istəyinə düşsün. Qafqaz böyük müharibələr üçün yararlı deyil. Yüz il əvvəl bir dəfə olub bölgəni dağıdır. Odur ki, hesab edirəm Azərbaycanın siyasəti uğurludur və müxtəlif güclərin daşıma nöqtəsini təmin edir və ona görə mövqeyimiz hər kəs tərəfindən qəbul olunacaq".

Z.Oruc vurğuladı ki, Azərbaycan-Türkiyə-Rusiya-İran formatı, üçbucaq, dördücaq səviyyəsində olan ittifaqlar şübhəsiz ki, Azərbaycanın xarici siyasətinə müəyyən qədər təsir edir. Daxili gücü artırır, iqtisadi imkanları gücləndirir, manevr müstəvisinə yaxşı təsir edir: "Amma o bir yandan bəllidir ki, Qərb Azərbaycanın bu siyasətinə kompliment deyəsi deyil. Burada qarşı olan mövqelər var. Biz bunu danabilmərik. Lakin bilmək lazımdır ki, Azərbaycanın niyyəti ABŞ-a qarşı layihələr həyata keçirmək deyil. Sadəcə olaraq biz böyük regional yükdaşımalardan niyə imtina eləməliyik? Avropa və Asiya özünü başqa xətlərdə də birləşdirməyibmi? Məgər təkcə bizik bunu istəyən?

Bunu da etiraf eləmək lazımdır ki, Rusiya 1990-cı illərdə itirdiklərini müəyyən qədər qaytarır. Bu, Amerikanın xoşuna gəlməyəcək. Amma bunun günahı bizdə deyil. Barak Obama dövrünü ən azı Qafqazla bağlı siyasətdə itirilmiş zaman hesab edirəm. Bizim cəhdlərimiz nə qədər yüksək olsa da ABŞ özünün prioritetlərini dəyişdi. Ona görə də biz xarici siyasətimizdə müəyyən korrektələr aparmışıqsa bu o deməkdir ki, zamanın tələblərinə donmuş vəziyyətdə qalmamışıq, çağırışlara çevik reaksiya vermişik. Rusiya burada özünün mövqeyini müəyyən ağırlaşdırıbsa biz bundan imtinamı eləməliyik? Əlbəttə yox. Cənab İlham Əliyev böyük bir liderlik gücü ilə Türkiyənin, Rusiyanın, İranın, həmçinin Qərb dövlətlərinin maraqlarının çox yaxşı uzlaşdırılma müstəvisini yarada bilib".

❑ Etibar SEYİDAĞA

# "Əsas məsələ ali məktəbə girməkdir" deyənlərin yanlışı

Xalid KAZIMLI



**Bu günlər əlamətdar və fərəhlidir, qohum-əqrəbanın, dost-tanışların, həmkarların bir xeylisinin övladı ali məktəbə qəbul olunub.**

Valideynlər sosial şəbəkələrdə övladlarının uğuru ilə bağlı sevinclərini paylaşır, dostlarından gözaydınlığı qəbul edirlər.

Onların hiss-həyəcanları başadüşüləndir: hər kəs istəyir ki, övladı ali təhsil alsın, gələcəkdə ixtisasına uyğun iş tapsın, cəmiyyətin fəal kəsiminə mənsub olsun, həyatın dibinə yuvarlanmasın.

Xalqımızın təhsilə bunca böyük önəm verməsi sevindiricidir. Deməк ki, biz millət olaraq xoşbəxtliyə, rifaha, firavanlığa yetməyin düsturunu aşağı-yuxarı bilirik. Bu, yaxşı təhsildən keçir.

Təhsili zəif və aşağı olan heç bir millət xoşbəxt deyil və ola bilməz - istəyir başına göydən qızıl yağsın, istəyir ayağının altındakı torpaqdan sərvət fışqırsın.

Bir ölkənin karbohidrogen ehtiyatlarla zənginliyi önəmli məsələ deyil. Ona qalsa, Nigeriyanın da nefti çox idi. Amma bu ölkə öz neftindən Norveç qədər səmərəli istifadə edə bildimi? Edə bilmədi. Niyə? Çünki elmi, təhsili zəif idi.

Yaponiyanın karbohidrogen ehtiyatları yoxdur, əvəzində yüksək səviyyəli təhsili var, insan oğlunun xəyal edə biləcəyi ideal cəmiyyəti, nümunəvi iqtisadiyyatı və üstün sosial həyat modelini qurublar.

Ümumiyyətlə, hansı ölkədə təhsilin səviyyəsi yüksəkdir, o ölkə mütləq daha ağ gündədir. Elmlə, savadlı adamlar tərəfindən idarə olunan ölkələr digərlərindən bir addım öndədir.

Bizim xalq lap qədimlərdə, cəhalət dövründə belə, özünə elm işığı axtarıb, təhsilə fikir verib. Son yüz ildə isə elm-təhsil istiqamətində xeyli məsafə qət edərək bu günlərə gəlib çıxmışıq.

Hazırda ölkəmizdə onlarla ali təhsil müəssisəsi var və gənclərimiz dünyanın bir çox şəhərlərində təhsil alırlar.

Xaricdə ali təhsil almaq məsələsi də ciddi önəm daşıyır. Ölkəmizdəki klinikalarda pasiyentlər həkimlərin öz təhsillərini xaricdə davam etdirmiş olmalarını biləndə, onlara daha mötəbər mütəxəssis kimi yanaşır, daha çox inam bəsləyirlər.

Əksər vaxt məlum olur ki, gerçəkdən də ixtisaslarını xaricdə artıran, öz üzərində daima işləyən kadrlar daha çox uğur əldə edə bilirlər.

Yəni orta məktəbi bitirdin, ali məktəbə girdin, məzun oldun, oxumaq bitdi deyə bir şey yoxdur. Mütəxəssis olan kəs təqaüdə çıxana qədər təhsilini davam etdirməlidir.

Təəssüf ki, bizdə valideynlərin böyük əksəriyyəti abituriyentlərə daima belə bir yanlış tövsiyə verirlər: "Çətini ali məktəbə daxil olana qədərdir, ondan sonra rahat olacaq, ta bu qədər oxumayacaqsan".

Tam yanlış bir mövqedir. Ali məktəbə daxil olmaq məqsəd ola bilməz, o, yaxşı mütəxəssis, peşəkar kadr olmaq üçün bir vasitədir. İnsan sona qədər öyrənməlidir, öyrənməkdə davam etməlidir. "Bu qədər oxumağım yetər" dediyi anda istənilən mütəxəssisin tənəzzülü başlayır.

Bu üzdəndir ki, ölkədə çoxlu ali təhsil diplomu olan, amma əslində savadsızlığı göz deşən mütəxəssislər var. Onlar zamanında qarşılarına nəyin bahasına olursa-olsun, ali məktəbə daxil olmağı məqsəd qoyan, bu arzuya çatınca işini bitmiş sayan şəxslərdir.

Bir yapon, bir cənubi koreyalı, bir kanadalı heç vaxt elə etməz. Onlar özünütəkmilləşdirməni daima davam etdirir, nəticədə ortaya elmi ixtiralar, icadlar çıxarırlar.

Bu xüsusda minusumuz var. Bizim tələbələrin çoxu universitet illərinin tezliklə geridə qalmasını arzu edir, diplom alaraq canlarını qurtarmaq istəyirlər.

Ali məktəblərə qəbul olunanların sırasında qızların xüsusi çəkisinin bu il də ağır olması isə ürəkaçan məsələdir.

Müasir valideynlər bütün çətinliklərə baxmayaraq, qız övladlarının ali təhsil almasına xüsusi fikir verir, gələcəkdə onların cəmiyyətə qaynayıb-qarışmasına çalışırlar.

Təcrübə göstərir ki, ölkədə ali təhsilli qadınlar nə qədər çox olsa, onların tərbiyə etdikləri sağlam və savadlı övladların sayı bir o qədər çox olacaq.

Qadınların evə qapadılması dövrü arxada qalmış kimi görünür. Bunu məqsədli şəkildə edənlər varsa da, onlar həm cəmiyyətə, həm də öz övladlarının gələcəyinə problem yaradırlar.

Ölkədə təhsilin səviyyəsinin qaldırılması probleminə gəlincə, bu problem var və təhsil sahəsinə rəhbərlik edənlər dünyanın qabaqcıl təhsil modellərinin ölkəmizdə tətbiq edilməsinin qayğısına qalmalıdırlar. Əks halda, geri qalacağıq.

YENİ MÜSAVAT
N 177 (6498) 13 avqust 2016

# Türkiyəyə iç savaş, Cənubi Qafqaza nüvə zərbəsi təhlükəsi...

Türkiyəyə qarşı növbəti həmlə ehtimalı- ölkə daxili xaosa sürüklənə bilər; "Qafqaz üçlüyü" regional təhlükə risklərindən duyuq düşüb; savaşın əsas ağırlıq mərkəzi Azərbaycanın üzərinə düşə bilər; "Metsamor" AES-i partlatmaq variantı..




**Türkiyədə cərəyan edən son hadisələr bir çox önəmli məqamların ortaya çıxmasına səbəb oldu. Və bu önəmli məqamlar yalnız Türkiyənin yerləşdiyi bölgədə deyil, həm də ona qonşu olan regionlarda, eləcə də beynəlxalq səhnədə supergüclər arasındakı savaşı özündə əks etdirir. Hətta belə düşünmək mümkündür ki, supergüclər arasındakı dünya hegemonluğu uğrunda amansız və güzəştsiz savaşın bəzi konkret hədəfləri artıq deşifrə olunub.**

Düzdür, indiki situasiyada Türkiyə faktiki olaraq, təhlükəli xarici təcavüzdən xilas olmuş kimi görünür. Ancaq baş verənlərə daha diqqətlə yanaşdıqda bu situasiyanın müvəqqəti xarakter daşıdığı qətiyyən şübhə doğurmur.

Çünki qardaş ölkədə yaşananlar birmənalı olaraq, supergüclərin dünya hegemonluğu uğrunda mübarizəsinin Türkiyə mərhələsidir. Və bu mərhələni yekunlaşdırmadan növbəti etapa keçid ehtimalı inandırıcı deyil.

**Türkiyəyə qarşı növbəti həmlə ehtimalı...**

Belə anlaşılır ki, Türkiyənin üzləşə biləcəyi növbəti həmlə o qədər də uzaqda deyil. Tezliklə fərqli formatda yeni həmlənin edilə biləcəyi tamamilə realdır. Türkiyə üzərində aparılan beynəlxalq rametmə əməliyyatının arsenalında daha hansı gizli şəbəkənin və mexanizmin mövcudluğu isə yalnız növbəti həmləyə start veriləndə aydınlaşa bilər.

Əslində Türkiyənin məruz qaldığı bu beynəlxalq əməliyyat o qədər də gözlənilməz və təəccüblü də deyildi. Hər halda, vaxtilə dünya hegemonluğu uğrunda savaşın Ukrayna, Türkiyə və Cənubi Qafqaz üzərindən aparıldığını yazmışdıq. Və Ukraynadan sonra növbəti hədəfin məhz Türkiyə ola biləcəyini proqnozlaşdırmışdıq.

Çox təəssüf ki, indi bu proqnozumuz reallığa çevrilməyə başlayıb. Əgər Türkiyə ələ keçirilmiş olsaydı, bu dəfə növbəti hədəf Cənubi Qafqaz olacaqdı və savaşın əhatə dairəsi qapanacaqdı. Ancaq Ərdoğan hakimiyyətinin bu fəlakəti müvəqqəti də olsa, önləyə bilməsi Cənubi Qafqazı da hələ ki hədəfə çevrilməkdən yayındırıb.

***

Ancaq yenə də təəssüflə qeyd edək ki, ümumi təhlükə qətiyyən sovuşmayıb və böyük ehtimalla tezliklə ssenarinin ehtiyat, bəlkə də ən əsas variantı işə salına bilər.

**Hərbi çevriliş cəhdinin asanlıqla yatırılması müəmmalıdır**

Türkiyəyə qarşı ehtiyat variantlardan danışmazdan öncə istər-istəməz 15 iyulda baş vermiş hərbi çevrilişə cəhdlə bağlı da fərqli ehtimallara da diqqət yetirmək lazım gəlir. Hər halda, çevriliş cəhdinin niyə baş tutmaması və təşkilatçıların hansı səbəbdən bu qədər bəsit ssenari üzrə hərəkət etmələri bir qədər düşündürücüdür.

Məsələ ondadır ki, hərbi çevrilişə cəhdin arxasında xarici xüsusi xidmət servislərinin olması barədə iddialar ön plandadır. Amma bu halda çevriliş cəhdinin uğur qazanma ehtimalı yüzdə 99 faiz həddində olmalıydı. Çünki xarici xüsusi xidmət servislərinin çevriliş ssenariləri əksər hallarda reallaşmış olur. Və belə ssenarilərin qarşısını almaq demək olar ki, imkansız xarakter daşıyır. Bu baxımdan, əgər çevriliş cəhdi doğrudan da uğursuz olubsa, deməli, Gülən şəbəkəsi sahib olduğu iddia edilən xarici dəstəyi mütləq itirəcək. Çünki xarici xüsusi xidmət servisləri *(xüsusilə də CİA)* məğlubları sevmirlər və onların ssenarilərində yer alıb, uğur qazana bilməyənlərin arxasında dayanmırlar. Yəni verilən tapşırığı yerinə yetirə bilməyənləri dərhal tərk edirlər.

Ona görə də bu çevriliş cəhdinin uğurlu olub-olmaması ABŞ-ın F.Gülənin təhvil verilməsi ilə bağlı Türkiyənin israrlı tələblərinə yönəlik yekun qərarından sonra tam dəqiqləşəcək. Əgər ABŞ indiki mövqeyindən geri çəkilməzsə, deməli, "hərbi çevrilişə cəhd" ssenarisi əslində uğurlu olub və öz hədəflərinə çatıb.

**"Hərbi çevriliş cəhdinin Sissisi" niyə hələ də məlum deyil?**

Əslində bunun hakimiyyətin devrilməsinə hədəflənmiş hərbi çevriliş cəhdi olmasına şübhə yaradan müəyyən məqamlar da var. Məsələn, "hərbi çevriliş cəhdinin Sissisi" hələ də məlum deyil. Misirdə hərbi çevriliş ediləndə orduya general Əbdülfəttah Xəlil əl-Sissi rəhbərlik edirdi. Və o, hakimiyyəti ələ keçirtmək istədiyini qətiyyən gizlətmirdi.

Ancaq Türkiyədə hərbi çevriliş cəhdinin başında duran birinci şəxsin kimliyi hələ də müəmmalıdır. Hərbi çevrilişdən sonra Türkiyəni kimin idarə etməsinin nəzərdə tutulduğu da doğru-düzgün məlum deyil.

Düzdür, bir müddət öncə MHP-ni parçalamağa cəhd göstərmiş Meral Akşener çıxışlarının birində iyunun 15-dən sonra baş nazir olacağını açıq mətnlə bəyanlamışdı. Eyni zamanda müəllifi Atatürk olan "Yurdda sülh, cahanda sülh" şüarını səsləndirmişdi.

İndi məlum olur ki, xanım Akşener əslində həmin mitinqdə yaxınlaşan hərbi çevrilişə cəhdin şifrələrini açıqlayıbmış. Hərbi çevriliş cəhdinin təşkilatçıları da hakimiyyətə əl qoyduqlarını "Yurdda Sülh Konseyinin bəyanatı ilə elan etmişdilər".

Ancaq Akşenerin "Türkiyənin Sissisi" olmasının nəzərdə tutulması qətiyyən inandırıcı görünmür. Çünki belə bir nəhəng hərbi oyunun məhz bu qadının hakimiyyətə gətirilməsi üçün qurulmasına yalnız sadəlövhlər inana bilərlər. Böyük ehtimalla bu qadından, sadəcə, hazırlıq təbliğatı üçün istifadə edilmiş ola bilər.

**Türkiyədə vətəndaş müharibəsi üçün zəmin yaratmağa cəhd göstərildi**

Bütün bunları nəzərə aldıqda, hərbi çevrilişə cəhdin hədəf və məqsədləri bir qədər şübhəli xarakter daşıyır. Belə ehtimal etmək olar ki, hərbi hərəkətlənmə öz hədəfinə artıq çatıb. Çünki bu olayın qarşısı gözlənildiyindən daha asanlıqla alınsa da, əslində Türkiyəyə kifayət qədər əlavə ciddi problemlər qazandırdı.

Hazırda Türkiyə ordusu nüfuzdan salınıb, vətəndaşlar hərbçilərə artıq etibar etmirlər. Eyni zamanda ordu-vətəndaş və ordu-polis qarşıdurması da yaranıb. Hətta vətəndaşlar, polislər və bələdiyyələrin işçi texnikası hələ də hərbi bazaların qarşısında növbə çəkirlər. Tankların növbəti dəfə hərbi bazalardan çıxma təhlükəsini önləməyə çalışırlar. Halbuki bu, tamamilə əhəmiyyətsiz bir addımdır. Çünki əgər tankçılar hərbi bazadan çıxmaq əmri alarlarsa, onların tanklarının qarşısını heç nə ilə almaq mümkün deyil. Yəni 60 tonluq müasir tanklar hərbi bazanın istənilən istiqamət üzrə divarlarını asanlıqla dağıdıb, şəhərə çıxa bilərlər.

Bu baxımdan, hərbi bazaların qarşısında barrikadaların hələ də saxlanması tamamilə yersiz davranışdır. Və böyük ehtimalla hərbi çevrilişə cəhdin təşkilatçıları da elə yaxın gələcək üçün Türkiyədə orduya etimadsızlıq mühitinin yaradılmasını hədəfləyiblər. Buna böyük ölçüdə də nail olublar.

**Türkiyə ölkədaxili xaosa sürüklənə bilər**

Deməli, bütün bunların arxasında tezliklə Türkiyəni daxili savaşa və xaosa sürükləmək planı da gizlənmiş ola bilər. Və bu, tamamilə inandırıcı görünür.

Bütün bunlardan belə nəticə çıxarmaq olar ki, Türkiyənin yaxın gələcəyi üçün vətəndaş müharibəsi ssenarisinin işə salına biləcəyi tamamilə inandırıcıdır. Çünki belə bir ssenarinin uğur qazanması üçün məlum şəbəkələrin səylər sayəsində artıq kifayət qədər "toxumlar" səpilib. Həm cəmiyyət təbəqələşərək parçalanıb, həm ordu vətəndaşların əsas güvənc ünvanı olmaqdan çıxarılıb, həm də ordu və polis arasında ziddiyyətlər yaradılıb. Eyni zamanda bu istiqamətdə əlavə problemlər də mövcuddur.

Belə anlaşılır ki, dünya hegemonluğu uğrunda savaşın Türkiyə mərhələsində əsas hədəf bu qardaş ölkənin Suriya, İraq və ümumiyyətlə, Yaxın Şərqdə reallaşdırılan xaos ssenarisinə "inteqrasiya" etdirilməsidir. Baş tutacağı təqdirdə, Yaxın Şərqdə "alova bürünmüş xaos məkanı" Türkiyə ərazisi qədər böyüyə bilər.

Əgər bu ssenarini reallaşdırmağa nail olarlarsa, növbəti hədəf region Cənubi Qafqazın olacağı qətiyyən şübhə doğurmur. Çünki dünya hegemonluğu uğrunda savaşın strateji məkanları olan Ukrayna və Türkiyədən sonra Cənubi Qafqaz, Xəzəryanı və Orta Asiya regionlarının da tam, həm də şeriksiz nəzarətə alınması əsas şərt kimi önə çıxacaq. Bu halda, "yanğın" bizim regiona da sıçraya və Cənubi Qafqaz da "alova bürünmüş xaos məkanı" ola bilər.

**"Qafqaz üçlüyü" təhlükədən duyuq düşmüş kimi görünür**

Onu da qeyd edək ki, bunun üçün Cənubi Qafqazda kifayət qədər ciddi stimullaşdırıcı faktorlar da yetişdirə biliblər. Və yəqin ki, Cənubi Qafqaz ölkələri, xüsusilə də, Azərbaycan dövləti bu həssas məqama diqqəti artırmalı olacaq.

Onu da qeyd edək ki, son vaxtlar rəsmi Bakı Cənubi Qafqazı gözləyən təhlükələrdən narahat olduğunu müxtəlif variantlarda biruzə verir. Hətta bu təhlükələrin qarşısını vaxtında ala bilmək üçün müəyyən preventiv addımlar da atmağa çalışır.

Belə addımlara misal kimi, Azərbaycan prezidenti İlham Əliyevin birbaşa təşəbbüsü və təşkilatçılığı ilə paytaxt Bakıda yeni "Qafqaz üçlüyü"nün-Azərbaycan, Rusiya və İranın dövlət başçılarının sammitini göstərmək olar. Həmin sammitdə prezident İ.Əliyev Cənubi Qafqaz regionu üçün təhlükə risklərinin həmişə olduğunu, son vaxtlar isə daha da artdığını açıq mətnlə gündəmə gətirdi.

Bu baxımdan, prezidentlərin sammitini regionun təhlükə risklərindən qorunması istiqamətində səylərin birləşdirilməsi üçün atılan önəmli addımlardan hesab etmək olar. Və yəqin ki, yaxın gələcəkdə bu səylər daha da intensivləşdiriləcək.

Eyni zamanda münasibətləri "vurulmuş təyyarə böhranı" ilə müəmmalı şəkildə pozulmuş Türkiyə və Rusiyanın yenidən barışaraq, "qoparılmış ipləri düyünləməyə" başlamaları dünya hegemonluğu uğrunda savaşda müdafiə sisteminin gücləndirilməsinə yardım edə bilər. Böyük ehtimalla yaxın gələcəkdə bu istiqamətdə situasiyanın nə qədər ciddi və təhlükəli olduğu aydınlaşmağa başlayacaq.

Üstəlik, Rusiyanın müdafiə naziri Sergey Şoyqunun bir müddət öncə Cənubi Qafqazın gələcək taleyi ilə bağlı qorxunc açıqlaması daha ehtiyatlı və diqqətli davranmaq zərurəti yaradır. Belə ki, S.Şoyqu yaxın vaxtlarda Cənubi Qafqazın xaosa bürünəcəyini, Suriya və İraqın taleyini yaşayaca biləcəyini açıq mətnlə bəyanlamışdı. Rusiyanın müdafiə nazirinin kifayət qədər ciddi məlumatlara malik şəxs olduğunu nəzərə aldıqda, region üçün yaxınlaşan təhlükənin səviyyəsini təsəvvür etmək çətinlik törətmir.

**Regional savaşın əsas ağırlıq mərkəzi Azərbaycanın üzərinə düşə bilər**

Təbii ki, bu savaş məkanında əsas regional oyunçu rolunda məhz Azərbaycanın çıxış edə biləcəyi qətiyyən istisna deyil. Çünki Gürcüstan və Ermənistan Cənubi Qafqazdakı geopolitik proseslərdə "sehirli çubuq" vasitəsilə hərəkət edən təsirsiz dövlətlərdir. Bunun əksi olaraq, Azərbaycan isə superdövlətlərin Cənubi Qafqazdakı maraqları arasında balans siyasəti ilə manevr etmək imkanlarına və hüquqlarına sahib olan regional liderdir. Bu baxımdan, savaşın əsas ağırlıq mərkəzinin məhz Azərbaycanın üzərinə düşə biləcəyi qətiyyən istisna deyil. Və bundan narahat olmaq üçün ciddi əsaslar mövcuddur.

Şübhəsiz ki, dünya hegemonluğu uğrunda savaşın Cənibi Qafqaz mərhələsinin hansı hərbi-siyasi, maliyyə-iqtisadi və ideoloji alətlər üzərindən reallaşdırılacağı barədə qəti fikir bildirmək hələ bir qədər tezdir. Aydın olan yeganə əsas məqam odur ki, belə bir regional savaş qaçılmaz xarakter daşıyır. Və hələlik bunun ilkin əlamətləri sezilir.

Ancaq savaş real görüntülər aldıqda, regionun "alova bürünə" biləcəyi və xaosa sürüklənəcəyi şübhə doğurmur. Çünki bu savaşın nəticələri və qalibi aydınlaşmadan nəhəng bir beynəlxalq toqquşmanın yekunlaşması mümkün deyil.

Böyük ehtimalla savaşın sonunda supergüclərdən biri mütləq qalib və Cənubi Qafqazın şəriksiz sahibi ola bilər. Region üçün ən təhlükəli məqam da elə məhz budur. Çünki məğlub olan tərəf dünya hegemonluğu uğrunda savaşdan kənarlaşacaq. Öz beynəlxalq mövqelərini qalib rəqibin xeyrinə itirmiş olacaq. Və sonrakı mərhələdə dünya üçün əhəmiyyətsiz siyasi məkan statusu qazanacaq.

**Məğlub supergüc "Metsamor" AES-i partlatmaqla, rəqibin qələbəsini sıfırlaya bilər**

Təbii ki, supergüclərdən heç birisi özləri üçün belə fəlakət ssenarisini qəbul etməz. Və rəqibin Cənubi Qafqazda tam qələbəsi ilə barışıb, buna imkan verməz.

Deməli, məğlub supergüc belə bir situasiyada rəqibin mütləq qələbəsini sıfırlaya biləcək hansısa mexanizmi işə salmaq məcburiyyətində qala bilər. Qeyd edək ki, əslində Cənubi Qafqazda belə bir mexanizm rolunu oynaya biləcək təhlükəli obyekt mövcuddur.

Belə ki, Ermənistandakı "Metsamor" Atom Elektrik Stansiyası (AES) Cənubi Qafqaz regionuna yerləşdirilən real nüvə bombasıdır. Bu baxımdan, savaşda ümidsiz məğlubiyyətə uğramış supergücün xüsusi xidmət servisləri həmin AES-i partlatmaqla, həm Cənubi Qafqazı nüvə zərbəsinə məruz qoya, həm də bu regionu rəqib supergüc üçün yararsız və itirilmiş savaş məkanına çevirə bilərlər.

Bu təhlükə reallaşacağı təqdirdə, Cənubi Qafqaz regionu üçün hansı qorxunc nəticələri ved etdiyini təsəvvür etmək o qədər də çətin deyil. Ona görə də Azərbaycan dövləti bu AES-in birdəfəlik bağlanaraq, region üçün zərərsizləşdirilməsi məqsədilə bütün mümkün beynəlxalq təzyiq rıçaqlarının işə salınmasına çalışmalıdır.

❑ **Elçin XALİDBƏYLİ**

YENİ MÜSAVAT
N 177 (6498) 13 avqust 2014

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az
Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi

# Avqust görüşləri Qarabağla bağlı təzə ümid qığılcımları yaradıb

## Bu qığılcımlar yekun sülh sazişinin yolunu açacaqmı? Rusiyalı politoloq: "Qarabağ nizamlanmasında Türkiyəyə böyük rol ayrılıb" - Azərbaycan da uduşda; **erməni ekspert:** "Ermənistan çox çətin vəziyyətə düşüb..."

**Dağlı Qarabağ məsələsi ətrafında yenidən diplomatik və siyasi fəallıq müşahidə olunmaqdadır. Avqust ayında belə fəallığın olacağı gözlənilirdi. Həm prezidentlərin Bakı sammiti, həm də Sankt-Peterburqdakı Ərdoğan-Putin görüşü problemə ən azından vasitəçi dövlət kimi Rusiyanın diqqətinin artması və Türkiyə amilinin gündəmə gəlməsi ilə müşahidə olundu.**






Gözlənildiyi kimi, proseslərin episentrində Azərbaycan və Türkiyənin yer alması işğalçı Ermənistanda ciddi narahatlıq doğurub. Erməni ekspertlər və politoloqlar Rusiya prezidenti Vladimir Putinin Azərbaycan prezidenti İlham Əliyevlə Bakıdakı danışıqlarını və Ermənistan prezidenti Serj Sərkisyanın Moskvaya səfərini fəal şəkildə şərh edirlər.

**Məsələn, Ermənistanın Kanadadakı keçmiş səfiri, "Modus Vivendi" mərkəzinin direktoru, politoloq Ara Papyan özünün facebook səhifəsində yazıb:** "Putinlə Əliyevin Bakı görüşündəki səmimilik düşünməyə vadar edir. Oradakı iqtisadi layihələrin siyasi nəticələri də olacaq. Bura Ərdoğanın Peterburqa səfərini və orada son altı ayda mövcud olmuş gərginliklə bağlı bütün məsələlərin nizamlanmasını da əlavə etsək, Ermənistan əslində çox çətin vəziyyətə düşüb. Azərbaycanın mövqeyi bizimkindən güclüdür və bu, etiketin bəzi incəliklərindən də sezilir: Putin Bakıya gedir, onu baş nazirin müavini qarşılayır, sonra Putin Əliyevin iqamətgahına çay süfrəsinə yollanır, bizim prezidenti isə Moskvaya çağırırlar ki, ona nəsə bildirsinlər" *(virtualaz.org)*.

*****

**Bəs Türkiyə amilini özündə ehtiva edən yeni siyasi-diplomatik aktivlik bütövlükdə nə vəd edir, nəhayət ki, konfliktin nizamlanmasına dair real bir irəliləyişin şahidi ola biləcəyikmi? Ekspert və şərhçilərin bu yöndə fikirləri müxtəlifdir.**

"Dağlıq Qarabağ nizamlanmasına dair son intensiv danışıqların gedişində müvəqqəti tarixi kompromis adlanan irəliləyiş üçün siyasi zəmin formalaşıb və bu prosesdə Türkiyəyə böyük rol ayrılıb". Musavat.com-un məlumatına görə, bu barədə Rusiyadakı Siyasi Tədqiqatlar Mərkəzinin direktoru, prezident Putinin etibarlı şəxslərindən sayılan Sergey Markov konfliktlə bağlı son danışıqlar prosesini "Vestnik Kavkaza" nəşrinə şərh edərkən bildirib.

**Onun sözlərinə görə, belə bir kompromis artıq bu il əldə oluna bilər:** "Böyük ehtimalla da bu, hələ 2011-ci ildə hazırlanmış, lakin bəzi səbəblərdən işə düşməmiş "Kazan formulu" əsasında baş tutacaq. Həmin formula əsasən, belə bir mübadilə baş verir: Ermənistan Dağlıq Qarabağ ətrafındakı rayonları Azərbaycana verir - bu rayonlar 7-dir. Başqa yandan, Ermənistan öz ərazisindən keçən tranzit xətlərinə zəmanət alır, həmçinin Ermənistanın və Dağlıq Qarabağın de-blokadasına nail olur. Üçüncü yandan isə həmin rayonların hərbsizləşdirilməsi həyata keçirilir".

"Bu danışıqlar Rusiya tərəfdən ilk növbədə ATƏT-in Minsk Qrupunun həmsədri olaraq, intensiv şəkildə aparılır. İki digər həmsədr dövlət - ABŞ və Fransa isə öz daxili problemləri ilə bağlı passiv mövqe tutur. Bu dəqiqə onlar Qarabağ hayında deyillər. Türkiyə bu aktiv prosesə cəlb olunmayıb, ancaq anlaşma əldə olunacağı təqdirdə onun iştirakı tələb olunacaq. Çünki söhbət Ermənistanın təkcə Azərbaycan tərəfdən deyil, Türkiyə tərəfdən də blokadasının götürülməsindən gedir" - ekspert qeyd edib. Onun fikrincə, məhz bu səbəbdən Türkiyə maraqları əldə ediləcək anlaşma çərçivəsində müəyyən mənada nəzərə alınmalıdır.



"Məlumdur ki, "İrəvana münasibətdə Ankaranın özünün kompleks münasibətləri, həm də kifayət qədər qəliz münasibətləri var. Odur ki, hansısa mərhələdə Türkiyə mütləq şəkildə kompromis əldə olunmasına cəlb olunmalıdır - hansı kompromis ki, təkrar edirəm, böyük ehtimalla, "Kazan formulu" əsasında elə bu il əldə oluna bilər" - politoloq əlavə edib.

*****

Qeyd edək ki, "Kazan formulu" və ya "Lavrov sənədi" adlanan həll variantı barədə zaman-zaman danışılıb. ANİ erməni ekspertlər qrupu bununla bağlı hətta hesabat da hazırlayıblar və bu hesabata Ermənistan XİN tərəfindən qıcıqlı reaksiya verilib. Lakin təkzib də edilməyib.

Hər halda, masa üzərində konkret bir sənədin olduğu deyilir. Təsadüfi deyil ki, Ermənistan prezidenti Serj Sərkisyan isə sonuncu Moskva səfəri zamanı Qarabağ məsələsində "siyasi vəd diplomatik səylərə" görə Rusiya prezidentinə minnətdarlıq elədi və belə bir cümlə də işlətdi: "Əlbəttə ki, olduqca vacibdir ki, əldə olunan anlaşmalar həyata keçirilsin. Biz buna hazırıq".

**Bundan bir gün qabaq isə Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan rusiyalı həmkarı Putinlə görüşdən qayıdarkən 5 rayon məsələsinə toxunmuşdu. Sitat:** "Hazırda bölgədə Qarabağ problemi var. Bu məsələnin həllində Türkiyənin üzvü olduğu ATƏT-in Minsk Qrupu daha fərqli nəticələr əldə edə bilərdi. Rusiya, ABŞ və Fransa Minsk Qrupunun həmsədridir. Lakin onlar 23-24 ildir bu problemi hələ də həll edə bilməyib, yaxud həll etmək istəməyiblər. Təbii ki, işğal var. Bu işğalı hamı qəbul edir. Madam ki, işğal var, onda buna niyə son qoyulmur? Hazırda münaqişənin həlli prosesində bəzi irəliləyişlər mövcuddur. Putin bu məsələnin üzərinə gedir. Azərbaycan prezidenti İlham Əliyev də bunu mənə bildirdi. 5 rayon azad edilərsə, problemlər sözün əsl mənasında rahatlıqla həll ediləcək, regionda normallaşma prosesi başlaya bilər".

*****

Bu və digər yeni nüanslar Dağlıq Qarabağla bağlı avqust görüşlərindən hasil olan təzə ümid qığılcımları sayıla bilər. Bu ümidlər real sülh anlaşmasına gətirəcəkmi, Böyük Sülh Sazişinin yolunu açacaqmı?

Çox şey sübhəsiz ki, münaqişənin həllində əsas söz sahibliyini saxlayan Moskvanın məsələnin həllinə nə dərəcədə səmimi təkan verəcəyindən asılı olacaq.

**Rusiya liderinin bu xüsusda verdiyi son açıqlamalar da diqqət çəkir. Onların arasında beləsi də var. Putin deyib:** "Azərbaycan və Ermənistan Qarabağ münaqişəsinin real həllini istəyir. Rusiya İrəvanla Bakı arasında gərginliyin azalmasında maraqlıdır və kompromisin əldə olunması üçün həll yollarının axtarılmasında yardımını davam etdirəcək. Biz Minsk Qrupu çərçivəsində münaqişənin həll yolunun tapılmasında və İrəvanla Bakı arasında birbaşa əlaqələrin yaradılmasında köməyimizi davam etdirəcəyik".

**Kreml başçısının bu sözlərinin növbətçi bir bəyanat olub-olmadığı tezliklə bəlli olacaq. Bir məqamı da xüsusi vurğulayaq: Putinin müşavirinin dediyi kimi, prosesdə Türkiyəyə böyük rol ayrılması təbii ki, Azərbaycanın xeyrinədir və ölkəmizin mövqeyini, manevr imkanlarını gücləndirəcək. Çünki qardaş dövlətin həll variantına yanaşması bəllidir. Bunu son olaraq Türkiyənin Azərbaycandakı səfiri İsmayıl Alper Coşğun qəzetimizə verdiyi geniş müsahibədə bir daha ortaya qoyub.**

**Sitat:** "Türkiyə Azərbaycanı maraqlandıran bütün mövzularda hər zaman aktiv çıxış edib. Qarabağ məsələsinin həllində də Türkiyə hər zaman Azərbaycanın mövqeyini dəstəkləyən qətiyyətli mövqe nümayiş etdirib. Dəfələrlə bəyan etmişik ki, bu məsələdə hər zaman Azərbaycanın yanındayıq və Türkiyə olaraq üzərimizə düşən vəzifəni icra etməyə hazırıq. Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlu da bu yaxınlarda qeyd etdi ki, Azərbaycanın Dağlıq Qarabağ probleminin həllində təklif etdiyi və razılaşdığı formul nə olacaqsa, Türkiyə də onu dəstəkləyəcək".

Əlavə edək ki, bu ay Qarabağ məsələsi ilə prezidentlərin Paris görüşü də planlaşdırılıb. Politoloqlara görə, məhz bu görüş 4 günlük aprel döyüşlərindən sonra sülh danışıqlarında, nəhayət, sıçrayış olub-olmayacağı məsələsinə aydınlıq gətirməlidir.

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında. Səhifəni hazırladı: Siyasət şöbəsi

YENİ MÜSAVAT
N 177 (6498) 13 avqust 2016

# Deputat villasından və azan qadağasından danışdı

## Tahir Süleymanov ittihamları rədd edir; bəs deputatın villasını çəkib ictimailəşdirmək doğrudurmu?

**Şabran-Siyəzəndən seçilmiş deputat Tahir Süleymanovun bugünlərdə ortaya çıxan villa qalmaqalı səngimək bilmir. Qısaca olaraq xatırlatma verək ki, bir neçə gün öncə blogger Mehman Hüseynov facebook sosial şəbəkəsində deputatın Şabran rayonunda qiyməti milyondan artıq olan dəbdəbəli villası olduğunu və onun bu villanın yanındakı məsciddə azanın oxunmasına qadağa qoyduğunu yazıb.**



"Sancaq" səhifəsində yayımlanan videoda o da qeyd olunur ki, Tahir Süleymanov səhərlər azan səsindən narahat olduğu üçün polis əməkdaşları ilə birlikdə sözügedən məscidin axundunun yanına gedib və bu səsin onu narahat etdiyini dilə gətirib. Bloggerin hazırladığı videomaterial sosial şəbəkələrdə, mətbuatda, ictimaiyyətdə rezonans doğurub, tənqidi fikirlərə tuş gəlib.

**Deputat barəsində səslənən iddialarla bağlı report.az saytına açıqlama verərək icazəsiz olaraq villasının çəkilməsini qınayıb:**

"Məni bütün el-oba tanıyır. Siyəzəndə deyildim. Videoya çəkib yazıblar ki, evi var. Adamın evi olar da... Mənin 70-ə yaxın yaşım var, 55-60 ildir çalışıram, məgər mənim evim olmamalıdır?! Videonu çəkən adama demək lazımdır ki, sənin nə icazən var mənim evimi çəkirsən, kimdən icazə alıb çəkirsən?"

**Tahir Süleymanov villasının yaxınlığındakı məsciddə azan verilməsinə qadağa qoyması haqda barəsində səslənən iddiaların doğru olmadığını qeyd edib:**

"Deyir guya mən azan səsini xoşlamıram. Axı bunu hansı əsasla demək olar? Məgər biz müsəlman, azərbaycanlı deyilik? Azan veriləndə mən onun səsini ana laylası


Tahir Süleymanov

kimi eşidirəm, qəbul edirəm. Biz azan səsi ilə böyümüşük, bu nə söhbətdir mənim başım çıxmır?! İnsan gərək vicdanla hərəkət eləsin. Onu çəkənə demək lazımdır ki, ay bala, kimin sifarişi ilə bura gəlmisən, kimin sifarişi ilə belə bir material hazırlamısan? Sən "azan xoşuna gəlmir, azanı susdurub" deməklə mənim inancıma, dini əqidəmə də xələl gətirirsən. Hər bir azərbaycanlı, hər bir müsəlmanın damarında əgər müsəlman qanı varsa, o, azanla doğulur, azanla da böyüyür. Mən inanclı bir insanam. Bu rayonun məscidlə, qəbiristanlıqla bağlı və başqa xeyriyyə işlərini mən aparıram. İndi camaat da təəccüb edir ki, bu nə yazıdır? Rayonda ən inanclı ailələrdən biri mənim ailəmdir, biz namaz qılan adamlarıq. Bu videonu çəkən adam nə danışır?! Biz insanlara xidmət edirik".

**Tahir Süleymanov buna baxmayaraq, icazəsiz olaraq onun villası haqda videomaterial hazırlayan Mehman Hüseynovu məhkəməyə vermək fikrində olmadığını bildirib:**

"Bəziləri mənə məsləhət gördü ki, onu məhkəməyə verim. Mən də dedim ki, adam gərək məhkəmədə vicdanlı biri ilə üz-üzə dursun".

**Deputatın icazəsiz olaraq villasının videogörüntülərinin çəkilməsinə irad bildirməsi bizi bu mövzuya aydınlıq gətirməyə sövq etdi. Maraqlıdır, deputatın və yaxud hansısa siyasətçinin, məmurun evini, villasını çəkib ictimailəşdirmək nə dərəcədə doğrudur?**

**Media hüququ sahəsində ekspert Ələsgər Məmmədli məsələ ilə əlaqədar "Yeni Müsavat"a danışdı. Ekspert qeyd etdi ki, ictimai fiqur olan şəxslərlə bağlı bu cür məsələlərdə heç bir məhdudiyyət yoxdur:**

"Deputat seçilmiş şəxs, ictimai fiqur hesab edilir. Avropa Məhkəməsində də bununla bağlı özəl həyat və informasiya, ifadə azadlığının bir-biri ilə kəsişdiyi halda balansın necə qorunacağı ilə bağlı xeyli məhkəmə qərarları, yanaşmalar var. İctimai şəxslərin özəl əmlakı da olsa, əgər onun formalaşması bu və ya digər formada müəyyən şübhə yaradırsa, deputatın əmək haqqı bəlli deyilsə, kommersiya ilə məşğuldursa, əmlakının dəyəri milyonlarla ölçülürsə, əlbəttə ki, burda ictimai maraq var. Bu baxımdan da onun çəkilib göstərilməsində hər hansı bir məhdudiyyətdən söhbət gedə bilməz. Əgər orda sadəcə deputatın istirahətini, yaxud ailəsini çəkib göstərsəydilər və bunu qanunsuz etsəydilər, bəlkə bu, mübahisəli məsələ olardı. Amma indiki halda deputatın əmlakına girmədən, toxunmadan, onun haqqında informasiya yayıblar. Bu da kifayət qədər ictimai əhəmiyyət daşıyır. Xüsusən də həmin deputatın bu günə qədər olan fəaliyyəti dövründə dövlətdən aldığı əmək haqqına baxdıqda, eyni zamanda onun verdiyi vergilərə nəzərə salanda, bununla bağlı mübahisəli materialların təqdim edilməsi doğrudur".

❑ Xalidə GƏRAY



# Xalq artistinin qızı erməni ilə baş-başa...

## Aktyor Ramiz Novruz isə hələ də qızının utandırıcı davranışlarına susur

**Son vaxtlar adı tez-tez erməni stilistlə hallanan xalq artisti Ramiz Novruzun qızı Şəfəq Novruzova daha bir biabırçı olaya imza atıb. Sonuncu müsahibələrinin birində "Ürəyim istəyəndə bilet alıb erməninin yanına gedəcəm" deyən xalq artistinin qızı ona qarşı yönələn bütün tənqid və təhqirlərə, ictimai qınaqlara baxmayaraq axır ki, bu "arzusunu" reallaşdırıb.**

Belə ki, İnstaqram səhifəsində paylaşdığı fotolardan məlum olub ki, Şəfəq Novruzova bugünlərdə erməni stilisti Georgi Kotdan ustad dərslər almaq üçün Soçiyə yollanıb. Heç nədən çəkinməyərək erməni Kotla baş-başa olan fotosunu paylaşan Şəfəq Novruzova onun ünvanına bolluca təriflər də yağdırıb: "Sizi yaratdığı üçün Allaha minnətdaram. Yaxşı ki, varsınız. Sağ olun ki, Allah tərəfindən sizə verilən bu qeyri-adi istedadı bizimlə bölüşürsünüz. Hər şeyə görə təşəkkür edirəm. Sizi çox sevirəm və hörmət edirəm. Mənim əziz ustam".

**Erməni stilist Georgi Kot da buna qarşılıq verərək, baş-başa olan fotolarını paylaşaraq qeyd edib:**

"Kimsə Azərbaycandan mənim yanıma gələ bilmir? Qəm yeməyin! Sizin ölkənizdə də istedadlı ustaların rəhbərlik etdiyi akademiya var".

Erməni stilist sonrakı paylaşımlarında müxtəlif ölkələrdən ustad dərslər almaq üçün onun yanına gələn stilistlərə öz təşəkkürünü bildirib. Bu ölkələr sırasında Özbəkistan, Türkmənistan, Qazaxıstan və nəhayət Azərbaycan və Ermənistanın da adı çəkilib.

Qeyd edək ki, xalq artisti Ramiz Novruzun qızı Şəfəq Novruzun sonuncu davranışı da ictimaiyyətdə, sosial şəbəkələrdə hiddətlə qarşılanıb, qəzəb doğurub.

Məsələ ilə əlaqədar xalq artisti Ramiz Novruzun rəyini öyrənməyə çalışaq da bundan öncəki kimi yenə də zənglərimiz susqunluqla qarşılandı.

Xatırladaq ki, xalq artisti Ramiz Novruzun qızı Şəfəq Novruzova bu ilin aprel ayında ustad dərsləri vermək üçün erməni stilisti Georgi Kotu Bakıya dəvət etsə də, sonradan ictimaiyyətin kəskin qınağı ilə onun gəlişini təxirə salmalı olmuşdu. Lakin qalmaqalın üstündən iki ay keçməmiş Ş. Novruzova rəhbərlik etdiyi və çalışdığı "Şəfa studio"nun bir neçə stilist əməkdaşlarını erməni stilistdən dərs almaq üçün Soçiyə göndərmişdi. Buna görə ciddi tənqidlərə tuş gələn xalq artistinin qızı heç nəyə baxmayaraq erməni stilistinə olan böyük rəğbətini, sevgisini gizlətmədiyini, imkan tapan kimi bilet alıb onun yanına gedəcəyini açıqlamışdı.

❑ Xalidə GƏRAY

# Referendum hazırlıqlarının ən çətin mərhələsi başa çatmaq üzrədir

## YAP imza toplamasını yekunlaşdırır, Müsavat 80 faizini yığıb

**26 sentyabrda keçiriləcək referendumla bağlı hakim Yeni Azərbaycan Partiyasının yaratdığı "Yeni Azərbaycan" təşəbbüs qrupu təşviqat qrupu kimi Mərkəzi Seçki Komissiyasında qeydə alınmaq üçün lazım olan 40 min imzanın əksəriyyətini toplayıb. Yaxın günlərdə imzatoplama kampaniyası başa çatdırılacaq.**

Partiyadan verilən məlumata görə, "Yeni Azərbaycan" təşəbbüs qrupu rayonların əksəriyyətində imzatoplama kampaniyasını uğurla başa çatdırıb.

Müxalifət düşərgəsində yeganə təşəbbüs qrupunu isə Müsavat Partiyası yaradıb. "Respublika" adlanan təşəbbüs qrupunun imzatoplama kampaniyasının nə yerdə olduğuna gəlincə, **partiyanın Divan üzvü Razim Əmiraslanlı** "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, MSK-dan alınan imza vərəqələri 70-ə yaxın rayon təşkilatlarına göndərilib. Artıq beş-altı gündür rayon təşkilatları bütün gücünü imzatoplama kampaniyasına yönəldib: "Vaxtın uğursuz, eyni zamanda havaların çox isti keçməsinə baxmayaraq, imzatoplama kampaniyası çox uğurla gedir. Bilirsiniz ki, Müsavat Partiyasının yüzlərlə çox təcrübəli seçki mütəxəssisləri var. Yəqin ki, yaxın günlərdə imzatoplama kampaniyasını uğurla başa çatdıracağıq. Məlumat üçün deyim ki, bu günə kimi 70-80 faiz imzalar yığılıb.

YAP-ın imzatoplama kampaniyasını əksər rayonlarda başa çatdırmasına gəldikdə, hər kəsə bəllidir ki, YAP adətən imzatoplama işini inzibati resursların, büdcə təşkilatlarında çalışan insanların hesabına toplayır. Əvvəlki illərdə YAP-ın namizədlərinə imzaların mənzil istismar sahələrinin rəislərinin kabinetlərində toplandığı barədə məlumatlar yayılmışdı".

R.Əmiraslanlı məlumat verdi ki, Müsavat Partiyasının referendumla bağlı mövqeyinin və addımlarının necə olduğu ilə bağlı Böyük Britaniyanın Azərbaycandakı səfirliyi maraqlanıb. Səfirliyin siyasi məsələlər üzrə katibi Ceyms Holder avqustun 12-də Müsavat Partiyasının qərargahına gəlib. Partiyanın Mərkəzi İcra Aparatında olan diplomat partiyanın rəhbərliyinə daxil olan şəxslərlə qarşıdan gələn refe-



rendum da daxil olmaqla, bir sıra məsələlər haqqında geniş fikir mübadiləsi aparıb. Qonağın diqqətinə referendumla bağlı Müsavat Partiyasının mövqeyi, hazırlıqları haqqında məlumat çatdırılıb.

❑ Etibar SEYİDAĞA

YENİ MÜSAVAT
N 177 (6498) 13 avqust 2016

**Bakı Ağır Cinayətlər Məhkəməsində ən səs-küylü məhkəmə proseslərindən biri - ərini -Daşınmaz Əmlak üzrə Dövlət Reyestri Xidmətinin rəis müavini olmuş Füzuli İsgəndərovu öldürməkdə təqsirləndirilən Xalidə İsgəndərovanın cinayət işi üzrə məhkəmə prosesi davam etdirilib.**

# Məmurun dəhşətli qətlində sirlər açılır

## Füzuli İsgəndərovun qətli ilə bağlı işi aparan müstəntiq tapılan maskanı niyə sübutlar siyahısından çıxarıb?



Musavat.com-un məlumatına görə, hakim Əfqan Hacıyevin sədrliyi ilə keçirilən məhkəmə prosesində iş materiallarındakı sənədlərin tədqiqi mərhələsi başa çatıb. Vəkillərin istəyi ilə iş materiallarında yer alan bəzi sənədlər məhkəmədə elan edilib.

Məhkəmədə həmçinin təqsirləndirilən Xalidə İsgəndərovanın vəkili Çavanşir Süleymanovun istəyi ilə işlə bağlı müstəqil ekspertlər tərəfindən aparılan ekspertizanın nəticəsi də elan olunub. Moskvada ekspertlərin rəyi ilə hazırlanan ekspertiza rəyində hazırkı iş materiallarında yer alan ekspertiza rəyləri arasında ziddiyyətlərin olduğu məlum olub. Bu ziddiyyətlər və elan olunan sənədlərə tərəflərin münasibəti növbəti prosesdə dinləniləcək.

Məhkəmə prosesində elan olunan sənədlərdən ən diqqət çəkəni işi aparan müstəntiqin qətlin baş verdiyi evin yaxınlığında tapılan maskanın sübutlar siyahısından çıxarmasıdır.

Elan olunan sənəddə qeyd edilir ki, qətlin baş verdiyi mənzilin yaxınlığında tapılan qadın corabından hazırlanan maska və şahid Sahib İbrahimovun ifadəsi sübutlar siyahısından çıxarılıb. Müstəntiq sübutlar siyahısından çıxarılan maskanın məhv edilməsi ilə bağlı da qərar verib.

X.İsgəndərovanın vəkilləri isə buna etiraz olaraq məhkəmə heyətinə bildiriblər ki, əgər müstəntiq həmin maskanı sübut olaraq qəbul etmirsə belə, onu məhv etmək hüququna malik deyil.

"Əgər bu sübut-maska müstəntiq üçün əhəmiyyət kəsb etmirsə, onun məhv edilməsini istəmək özbaşınalıqdır. Həmin maska bizim üçün sübut olaraq böyük əhəmiyyət kəsb edir" deyə, vəkillər qeyd edib.

Cavanşir Süleymanov məhkəmə heyətinə hazırladıqları maddi sübutların siyahısını da təqdim edib.

Qətlə yetirilən Füzuli İsgəndərovun atası Haqverdi İsgənədrov da məhkəmə prosesində söz alıb. O, məhkəmə sədrindən xahiş edib ki, hadisə baş verən gün evdə olan nəvəsi Əmanənin qətli anasının törətməsi ilə bağlı müstəntiqə verdiyi ifadə və hadisə yerində ifadənin yoxlanması zamanı aparılan videoçəkilişlər məhkəmə zalında nümayiş etdirilsin.

Hakim növbəti prosesdə bu tələbə münasibət bildiriləcəyini deyib. Prosesin sonunda təqsirləndirilən Xalidə İsgəndərova ilə qətlə yetirilən Füzuli İsgəndərovun vəkilləri arasında söz davası yaşanıb.

X.İsgəndərova zalda olanların ona söz deməsindən qəzəblənib. O, həyat yoldaşının yaxınlarına üz tutaraq "qardaşınızın başını yediniz" deyərək, qışqırıb. Sözlü mübahisəyə X.İsgəndərovanın vəkilləri müdaxilə edib. Bu dəfə isə mərhumun atası ilə vəkillər arasında mübahisə yaranıb. Tərəflər zaldan çıxarıldıqdan sonra mübahisə başa çatıb.

Məhkəmə prosesi avqustun 17-də davam edəcək.

Qeyd edək ki, qətl hadisəsi 2014-cü ilin sentyabr ayında baş verib. 1964-cü il təvəllüdlü Füzuli Haqverdi oğlu İsgəndərov yaşadığı evin yaxınlığında amansızlıqla öldürülüb.

Qətlə yetirilən F.İsgəndərov uzun illər Daşınmaz Əmlak üzrə Dövlət Reyestri Xidmətinin rəis müavini olub. O, həm də sabiq maliyyə naziri Əvəz Ələkbərovun xalası oğludur.

Xatırladaq ki, bundan əvvəlki məhkəmə proseslərində təqsirləndirilən şəxsin qızları Bülbül və Əmanə də ifadə verib.

**Hadisə baş verərkən anasının yanında olan Əmanə istintaqa verdiyi ilk ifadəsində atasının anası tərəfindən öldürüldüyünü desə də, sonradan bu ifadəsini təzyiq altında yazdığını və aldadıldığını deyib:** "Mənə dedilər ki, anan günahını boynuna alıb. Əgər sən desən ki, anam öldürüb, o zaman ananı ruhi xəstə kimi azadlığa çıxara bilərik. Mən də aldanıb belə ifadə vermişdim". Lakin Xalidə İsgəndərovanın həbs edilməsinə əsas isə məhz qızının verdiyi birinci ifadə olub.

**Mərhumun böyük qızı olan Bülbülə isə məhkəmədə verdiyi ifadəsində qətlin törədilməsində anasından şübhələndiyini bildirib:** "Hadisədən sonra bacım mənə dedi ki, anam atamı bıçaqlayıb. Mən bacımdan şübhələnirdim. İndi istəyirəm ki, günahkar kimdirsə, cəzalandırılsın".

Bacılar atasının ölümü ətrafında qohumları tərəfindən oyunlar oynanıldığını və onun əmlakının ələ keçirilməyə çalışıldığını deyir.

Mərhumun böyük qızı atasının dövlət məmuru olduğundan mülklərini yaxın qohumlarının adına keçirdiyini məhkəmə zalında açıqlamışdı. Mərhumun kiçik qızı hazırda xalası və dayısının himayəsində yaşayır. Böyük qızı isə əvvəl bibisi ilə yaşasa da bir müddət əvvəl evi tərk edərək tək yaşamaq qərarına gəlib.

❑ **İ.MURADOV**

# Xəstələrin xaricə üz tutmasının səbəbi - maddi faktor, yoxsa...

**Hər gün internetdə, xəbər portallarında, sosial şəbəkələrdə onlarla xeyriyyə məqsədli paylaşımlara rast gəlirik. Əksər paylaşımlar xəstə insanların, xüsusən imkansızların xəstəliklə yaşam mücadiləsini əks etdirir və insanları yardım etməyə çağırır. Lakin diqqət çəkən əsas məqam ondan ibarətdir ki, həmin xəstəliklərin Azərbaycanda müalicəsi yoxdur, yalnız hansısa xarici ölkədə müalicə etmək mümkündür. Məhz buna görə də həmin ailəyə on minlərlə manat vəsait lazımdır.**

## Seyfəddin Əsəd: "Xeyli xəstəliklər var ki, müalicəsi yalnız Azərbaycandadır"

## Musa Quliyev: "Bizim səhiyyəmizi dünya üzrə orta səviyyəli səhiyyə sistemi kimi xarakterizə edərdim"



Təbii ki, bizi maraqlandıran məsələnin xeyriyyə tərəfi yox, səhiyyə ilə bağlı tərəfidir. Görəsən, Azərbaycanda əksər ciddi xəstəliklərin müalicəsi yoxdur, yoxsa yetərsizdir? Niyə az qala hər iki xəstədən birinə xaricdə müalicə almaq məsləhət görülür?

**"Yeni Müsavat"a açıqlama verən təbii üsullarla müalicə həkimi Seyfəddin Əsəd** deyilənlərlə razılaşmadığını və Azərbaycan səhiyyəsinin arzu olunan səviyyədə olduğunu bildirdi: "Hesab etmirəm ki, Azərbaycanda bir çox xəstəliklərin çarəsi yoxdur. Məsələn, miqren xəstəliyi əhalinin 20 faizində var. Onun müalicəsi yalnız Azərbaycanda, mən Seyfəddin doktordadır. Bu, birmənalıdır və hamı da bilir. O xəstəliyin iynə-dərmanla müalicəsi yoxdur, yalnız təbii üsullarladır, onu da mən tapmışam. Bu mənada xeyli xəstəliklər var ki, müalicəsi yalnız Azərbaycanda mümkündür. Elə xəstələr də var ki, xaricə müalicəyə gedirlər, heç nə alınmır və qayıdıb gəlib yenidən burada müalicə alıb sağalırlar. Ancaq insanların imkanları var, çalışırlar ki, xaricdə daha yüksək keyfiyyətli müasir texnoloji avadanlıqların tətbiqi ilə müalicə alsınlar. Artıq bizə də müasir texnoloji avadanlıqlar gəlir. Həmçinin qonşu ölkələrin, xüsusən də Türkiyənin açıq qapı siyasəti, o ölkənin savadlı həkimlərinin Azərbaycana gəlməsi bizim səhiyyəmizin də inkişafına stimul verir".

**S.Əsədin sözlərinə görə, son vaxtlar qonşu dövlətlərə axın əhəmiyyətli dərəcədə azalıb:** "Hazırda bütün əməliyyatlar ölkəmizdə mümkündür. Ürəyin bütün əməliyyatları Azərbaycanda aparılır, qaraciyər köçürürlər, böyrək dəyişirlər. Ancaq elə əməliyyatlar var ki, aparatura sisteminə görə yalnız Amerikada mümkündür, Avropanın inkişaf etmiş ölkələrində - Almaniyada, İsraildə mümkündür. Lakin qonşu İranda, Türkiyədə elə bir əməliyyat yoxdur ki, bizdə olmasın. Orada nə varsa, bizdə də var. Azərbaycanda xeyli peşəkar həkim ordusu var. Bir praktikanı götürsək, keçən il Azərbaycandan xaricə gedənlərlə builkini müqayisə etsək kəskin fərqli görə bilərik. Digər tərəfdən, ölkəmizdə səhiyyənin inkişafı üçün, insanların normal tibbi xidmət alması üçün tibbi sığortanın olması vacibdir. Bəzi təşkilatlar var ki, onların bu sistemi mövcuddur. İşçilərin tibbi sığortası var, yaxşı olardı ki, bütün əhali bu sistemə keçsin. O zaman həm xəstələr üçün, həm də həkimlər üçün daha yaxşı olar".

**Milli Məclisin Sosial siyasət komitəsinin üzvü Musa Quliyev isə "Yeni Müsavat"a danışarkən bildirdi ki, bu məsələdə kommersiya maraqları daha güclüdür:** "Mən hesab edirəm ki, burada daha çox ayrı-ayrı şirkətlərin, bu işi təşkil edən adamların və xaricdəki müəyyən klinikaların kommersiya maraqları var. Məsələnin səbəblərindən biri bununla bağlıdır. Mən Azərbaycan səhiyyə sistemini dünya üzrə orta səviyyəli səhiyyə sistemi kimi xarakterizə edə bilərəm. Demək olar ki, xəstəliklərin böyük bir qrupunu Azərbaycanda müalicə etmək mümkündür. Bu işlər istər özəl klinikalarda, istərsə də dövlət klinikalarında həyata keçirilir. Ancaq bir şey var ki, Azərbaycanın özəl klinikalarında qiymətlər doğrudan da yüksəkdir. Bu da bəzi xəstələrin müalicəsinin nisbətən ucuz olduğu xarici ölkələrə getməsinə səbəb olur. Mənim fikrimcə, xəstəliklərin böyük əksəriyyəti Azərbaycanda müalicə olunur. İnsanların qarşısını kəsmək olmaz ki, sən xaricə müalicəyə getmə, Azərbaycanda müalicə al".

**Deputatının sözlərinə görə, əgər yaxın illərdə bizim icbari tibbi sığorta xidməti işə düşərsə, bir çox problemlər həllini tapa bilər:** "Bizim bu sahədə böyük ümidlərimiz var. Bu ilin sonuna kimi çox güman ki, icbari tibbi sığortanı pilot kimi tətbiq edəcəklər. Bundan sonra isə xaricə gedənlərin sayı xeyli azalacaq. Çünki vətəndaş öz maliyyə imkanlarını ölçüb biçir, əgər tibbi xidmət Azərbaycanda icbari tibbi sığorta ilə pulsuz göstəriləcəksə, heç də o müalicəyə görə xaricə getməyəcəklər. Bundan başqa, biz həm də sanator-kurort müalicəsini sevən millətik və azərbaycanlılar ənənəvi olaraq Şimali Qafqaz ölkələrinə, son dövrlərdə isə Şərqi Avropa ölkələrinə, Ukraynaya, Belarusa, xeyli vətəndaşımız isə Türkiyəyə kurorta gedirlər. Bu da səhiyyə xidməti kimi qeyd olunur və Azərbaycandan əhalinin müalicə üçün daha çox xaricə getməsi kimi qiymətləndirilir. Ölkəmizdə ürək, böyrək, qaraciyər köçürmə əməliyyatları, bir çox açıq əməliyyatlar həyata keçirilir. Bu isə o deməkdir ki, biz səhiyyə xidmətimizin səviyyəsindən əminliklə danışa bilərik. Amerikada adambaşına düşən səhiyyə xərci dünyada ən yüksək həddədir, təxminən 15 min dollardan artıqdır. Lakin Amerikadan hər il bir milyondan artıq insan başqa ölkələrə, o cümlədən Almaniyaya, Türkiyəyə, Uzaq Şərq ölkələrinə Sinqapura, Malayziyaya, Tailanda gedirlər. Bu o demək deyil ki, Amerikada tibbi xidmət yoxdur. Sadəcə, onlarda səhiyyə turizmi deyilən bir xidmət formalaşıb, həm gəzirlər, həm müalicə alırlar, həm də həmin ölkələrdə səhiyyə xərcləri ABŞ-da olduğundan daha ucuzdur".

**M.Quliyevin sözlərinə görə, icbari sığortanın tətbiq olunması həm vətəndaşa, həm də dövlətə faydalı olacaq:** "Azərbaycanın 10 milyona yaxın əhalisi var, bu əhalinin 99 faizi təbii ki, müalicəsini Azərbaycanda alır. Təxminən 50 min nəfər xaricə müalicəyə gedirsə, biz buna norma baxmalıyıq, bu bizim səhiyyəmizin keyfiyyətsiz olması demək deyil. Digər tərəfdən, Azərbaycanda tibbi sığorta nə qədər tez tətbiq olunsa, bir o qədər yaxşıdır, bu, həm dövlət büdcəsinə qənaət olacaq, həm də tibbi xidmətin keyfiyyəti yüksələcək. Burada sığorta agentliyi həm qiymətə nəzarət edəcək, həm də özəl klinikalardakı baha qiymətlərin qarşısını alacaq, sağlam rəqabətə səbəb olacaq. Tibb müəssisələri mümkün qədər keyfiyyətli və ucuz tibbi xidmət göstərməyə çalışacaq ki, agentliklər onlarla tibbi sığorta müqaviləsi bağlasınlar. Bu ilin sonundan tibbi sığorta tətbiq olunmağa başlasa, vətəndaş da, dövlət də bunun faydalarını görə biləcək".

❑ **Nərgiz LİFTİYEVA**

YENİ MÜSAVAT
N 177 (6498) 13 avqust 2016

# Marixuana- Azərbaycanda qadağandır, Gürcüstanda yox...

## Narkotik maddələrin istifadəsi hansı ölkələrdə leqallaşdırılıb?



**ABŞ prezidenti Barak Obamanın ailəsi yenidən dünya mediasının hədəfinə tuş gəlib. Bu dəfə prezidentin 18 yaşlı qızı Malia Obamanın narkotikdən istifadə etdiyi barədə məlumatlar yayılıb. Bu cür məlumatların yayılmasına səbəb isə Malianın ötən həftə Kolumbiyanın paytaxtında iştirak etdiyi festivalda siqaret çəkərkən kameralara tuş gələn videogörüntüləri olub.**

Kadrlardan da aydın görünür ki, Malia siqaret çəkir. Lakin festivalda iştirak edən bəzi şahidlər prezident qızının əslində narkotik maddədən istifadə etdiyini iddia edirlər. Bu iddialar isə Amerika və dünya mətbuatında qalmaqala səbəb olub. Qeyd edək ki, Amerikada federal qanunlara görə, narkotik maddələrin istifadəsi və satışı qadağandır.

ABŞ prezidentinin 18 yaşlı qızının marixuanadan istifadə etməsi qınanılsa da Amerikanın bəzi ştatlarında qanunla marixuananın qəbuluna icazə verilməsi ilə bağlı faktlar var. Bunlardan biri Kolorada ştatıdır. Hələ 2012-ci il dekabrın 10-da ştatın başçısı Con Xikenluper bununla bağlı qanun imzalayaraq marixuanadan istifadəyə icazə verib. Qanuna əsasən, 21 yaş və ondan yuxarı yaşda olan insanlar istifadə məqsədi üçün az miqdarda onu əkib, becərə bilər. Bununla belə, marixuananın satışı və alışı qadağandır.

Beləliklə, bəzi ştatlarda məsələyə dair dəyişikliklər olsa da, federal qanunvericilik hələ də istənilən növ narkotik maddələri və birləşmələri yasaqlayır. Amerikanın müxtəlif ştatlarında narkotik maddələrin qanunsuz dövriyyəsi ilə bağlı kifayət qədər insan çoxillik və ömürlük həbs cəzasına məhkum olunub. Bu ilin may ayında Barak Obama bu cür məhkumların 58-ni əfv edib.

Bununla belə, dünyanın bir çox, o cümlədən Avropa ölkələrində narkotik maddələrin satışını leqallaşdıran qanunlar qəbul edilib. Bu yolla tüğyan edən narkotik maddələrin qara bazardan çıxmasına və bir çox qanunsuz tədbirlərin azaldılmasına çalışırlar. Bu cür ölkələrdən biri Argentinadır. Bu ölkədə narkotik maddələrlə mübarizədə de-kriminalizasiya siyasətini seçib. Argentina hökuməti hesab edir ki, yetkin insanların özlərinin qərar vermək hüququ var, bu baxımdan əgər onların seçimi ətrafındakılara neqativ təsirsiz ötüşürsə, deməli, insanlar özlərinə uyğun şəkildə hərəkət edə bilərlər.

Latın Amerikasında, o cümlədən Ekvadorda da narkotik maddələrlə bağlı məsələ bir qədər yumşaldılıb. 2008-ci ildə yerli hökumət orqanları narkotiklərdən istifadənin de-kriminalizasiyası haqqında qərar qəbul edir. Həmin andan etibarən narkotiklərin şəxsi istifadəsi və saxlanmasına icazə verilsə də, onların satışı qanunsuz olaraq qalır. Ekvador əhalisinə müəyyən kiçik doza və ölçülərdə narkotik maddələrin saxlanmasına icazə verilir: 10 qram marixuana, ağır uyuşdurucu maddələrə uyğun olaraq 100 milliqram heroin və 80 milliqram ekstazi.

Yamaykada isə demək olar ki, əhalinin 70 %-ə qədəri marixuana istifadəçisidir. Bu səbəbdən hökumət narkotik maddələrə qarşı mübarizə və nəzarəti zəifləDİB, de-kriminalizasiya tətbiq edir. Hollandiya, Meksika, Xorvatiya, Portuqaliya da narkotik maddələrin qismən satışını leqallaşdıran ölkələr siyahısına daxildir.

**Bəs Azərbaycanda narkotik maddələrin istifadəsinin leqallaşdırılmasına zərurət varmı?**

Ötən ilin oktyabrında qonşu Gürcüstanda marixuanadan istifadənin leqallaşdırılması ilə bağlı qərar qəbul edildən Azərbaycanda bu məsələ yenidən gündəmə gələrək xeyli müzakirə olundu, çağırışlar edildi. Bu yaxınlarda Milli Məclisin sonuncu plenar iclasında **deputat Qüdrət Həsənquliyev** də Azərbaycanda narkotik vasitələrdən istifadənin leqallaşdırılmasını təklifini irəli sürmüşdü. Bir sıra ölkələrdə narkomanlara marixuanadan istifadəyə icazə verildiyini xatırladan Q. Həsənquliyev həbsxanada olanların böyük əksəriyyətinin narkotik istifadəçiləri olduğunu vurğulamışdı: **“Narkomanları həbsxanalara doldurmağın xeyri yoxdur, dövlət də onların həbsxanada saxlanılması üçün böyük xərc çəkir. O insanlar məcburi müalicəyə göndərilməlidir. Ona görə də satış, daşıma halları varsa, istintaq bunu sübut edirsə, həmin şəxs cinayət məsuliyyətinə cəlb olunmalıdır. Lakin narkotik şəxsi istehlak üçün nəzərdə tutulubsa, bu şəxslərin cinayət məsuliyyətinə cəlb edilməsinə son qoyulmalıdır. Belə şəxslərin narkotik vasitələrdən istifadəsi müəyyən çərçivədə leqallaşdırılmalıdır. Bütün dünya bu addımı atır, biz də atmalıyıq”.**

Qeyd edək ki, ölkəmizdə narkotik istifadəçilərinin sayı kifayət qədər çoxdur. Ötən ilin rəsmi statistikasına görə ölkədə 28656 nəfər narkoman var. Bunun 554 nəfəri qadınlar, 666 nəfəri anonim müalicə alanlardır. Lakin dünya təcrübəsindən də məlumdur ki, qeyri-rəsmi məlumatlar, rəsmi məlumatlardan 5 və ya 10 dəfə çox olur.

Bəs ölkəmizdə narkotik maddələrin satışı və istifadəsi hansı cinayət məsuliyyəti yaradır?

Təkcə 2015-ci ildə bir il ərzində narkotik maddələrin istifadəsi və satışı səbəbi ilə 2 min 587 min nəfər cinayət məsuliyyətinə cəlb olunub. Onların 7-si 18 yaşadək, 565 nəfəri 30 yaşadək, 2 min 15-i 30 yaşdan yuxarı olanlardır.

“Hüquqi Dövlət” Araşdırmalar Mərkəzinin rəhbəri Müzəffər Baxışın sözlərinə görə, Cinayət Məcəlləsinin 243.1-ci maddəsinə əsasən qanunsuz olaraq narkotik vasitələri, psixotrop maddələri və ya onların prekurslarını hazırlama, istehsal etmə, əldə etmə, saxlama, daşıma, göndərmə və ya satma cinayət məsuliyyətinə səbəb olan əməldir. Və buna görə 3 il müddətinədək azadlıqdan məhrum etmə cəzası nəzərdə tutulub. Marixuanaya gəldikdə, onun qurudulmuşu 5 q, yaş olanı isə 25 qramdan yuxarı, yəni istehlak miqdarından artıq olarsa, cinayət məsuliyyəti yaranır. Narkotik maddələrin satışına görə 3 ildən 7 ilədək, mütəşəkkil dəstə tərəfindən külli miqdarda satışı, daşınmasına görə isə 5 ildən 12 ilədək azadlıqdan məhrum etmə cəzası nəzərdə tutulub.

❑ **Xalidə GƏRAY**





## Kişilər!!! Axırıncı şans!!!

**İsrail təbabəti** tətbiq edilir!

Əgər Sizə nə **Azərbaycanda**, nə də **xaricdə heç kim kömək edə bilməyibsə, onda yaxşı insanlara, aşağıdakı xəstəlikləri**, keyfiyyətli, qısa müddətlə və tam müalicəsini **d-r Vaiz Səmədov apara bilər:**

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi (*enurez*)**
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Yuxusuzluq və yuxu pozuntuları**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi. Sızanaqlar**
* **Yuxuda ikən və yuxudan qalxanda qan təzyiqinin yüksək qalxması**
* **Boyun, baş, bel, ayaq ağrıları və osteoxondroz**
* Onurğa sütununun yırtığı, qulunclarin dərmansız müalicəsi

Həkimə zəng etmək üçün (saat 11.00-dan sonra)
**Tel: (050) 213 88-05.**
**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com doktor Vaiz Səmədov.**


## Samuxda 25 yaşlı oğlan sevdiyi qıza görə intihar etdi

**Samux rayon sakini intihar edib. APA-nın qərb bürosunun verdiyi məlumata görə, rayonun Çobanabdallı kənd sakini, 1990-cı il təvəllüdlü Fuad Mərdanov yaşadığı evdə özünü asarkən kəndir qırılıb və o, hündürlükdən yerə yıxılıb. Atası onu xəstəxanaya çatdırsa da, 25 yaşlı oğlanı xilas etmək mümkün olmayıb. F. Mərdanovun sevdiyi qızdan rədd cavabı aldığına görə intihar etdiyi bildirilir.**

YENİ MÜSAVAT
N 177 (6498) 13 avqust 2016

**Dünya mətbuatının ən sevdiyi mövzu prezidentlərin, siyasət adamlarının özəl həyatıdır. O həyat ki, bir çox hallarda gizli sevgi hekayələrinə də şahidlik edir. Bu günlərdə Rusiya mediası Amerikadakı həmkarlarına istinad edərək, bu günə qədər səs-küylü sevgi qalmaqalı yaşayan prezidentlər barədə bir dosye hazırlayıb.**

# Prezidentlərin gizli sevgi hekayələri

## Lenindən Saakaşviliyidək...













**Dillərə dastan... Sarkozi...**

"Yeni Müsavat" həmin məqalədəki bəzi tarixi faktları və hekayələri hazırlayıb.

Öncə Fransadan başlayaq. Məlum, Fransanın bundan öncəki prezidenti Nikola Sarkozi hakimiyyəti dönəmində daha çox Karla Bruni faktoru ilə gündəmdə olub. Çünki Bruni daha öncə onun sevgilisindən həyat yoldaşı statusuna keçib. Onların Sarkozi ilə sevgi romanları çox qətiyyətli və cəsarətli olub. Karla ilə münasibətlərinə qədər Sarkozi iki dəfə evli olub. Onlar 2007-ci ildə tanış olublar və dərhal da Sarkozi həyat yoldaşından ayrılıb, bir neçə ay sonra isə Karla ilə ailə qurub.

Sarkozi Bruniyə qədər də evlilikləri dönəmində paralel olaraq eşq hekayələri yaşayıb. Məsələn, Nikolanın ikinci həyat yoldaşı Sesiliya ondan ayrılmasının səbəbini belə ifadə edirdi: "O, çox simic və şorgözdür".

Yeri gəlmişkən, Sarkozi Sisiliyanın ona qaytardığı üzüyü Karla Bruniyə hədiyyə etmişdi və sonuncu da utanmadan bu üzüklə fotokameralar qarşısında poza verirdi.

**İki fərqli ölkənin birinci ledisi olub**

1996-cı ilin 31 avqustunda bir neçə il əvvəl dünyasını dəyişən CAR-in sabiq prezidenti Nelson Mandela etiraf etmişdi ki, Mozambikin keçmiş lideri Samora Maşelin dul həyat yoldaşı ilə münasibət qurub. Bəs, Qrasa Simbine iki fərqli ölkənin birinci ledisi olmağı necə bacarıb? Samora Mozambik prezidenti ilə 1975-ci ildə ailə qurub, həyat yoldaşı 1986-cı ildə baş verən avtoqəza zamanı dünyasını dəyişib. Bundan sonra isə 52 yaşlı Qrasa 80 yaşlı Mandela ilə ailə həyatı qurub.

**Adı gözəl, özü gözəl Merlin Manro... və Kennedi hekayəsi**

Keçmiş ABŞ prezidenti Con Kennedi ilə əfsanəvi aktrisa Merlin Monro arasındakı münasibətlər isə dastana çevrilib. Onlar 1960-cı ildə, Kennedi hələ prezidentliyə namizəd olanda, Taxo gölü yaxınlığındakı istirahət guşəsində tanış olublar. Münasibətlər isə 1961-ci ilin oktyabrından, Kennedi prezident olandan sonra başlanıb. İlk dəfə Sanra Monika şəhərində baş tutan görüş ilk baxışda rəsmi görüş təəssüratı yaradırdı. Aktrisa ancaq rəsmi dəvətlərə qatılırdı. Amma gizli görüşlər barədə FTB xəfiyyələri memuarlar yazırdı. Çoxları hesab edir ki, bu roman Monro üçün faciəvi sonluqla bitdi, çünki o, çox şey bilirdi. 1962-ci ilin 4 avqustunda öz mənzilində ölü tapılan Merlin barədə daha bir ilginc detal isə yazılan memuarlardan birində belə qeyd edilib: "Şayiələr gəzirdi ki, FTB-nin direktoru Quver bu münasibətə görə başını itirmişdi. O, Merlin Monronun bütün sutka ərzində izlənməsi barədə göstəriş vermişdi. Quver hesab edirdi ki, Merlin kimi alkoqolik və dayaz ağıllı birinin Kennedi ilə yaxınlığı Amerikanın təhlükəsizliyinə zərbə ola bilər".

Bu siyahıda xüsusi yer tutanlardan biri də Fransanın sabiq prezidenti Valeri Jiskar Estenlə Silviya Kristel cütlüyü olub. Onların hekayəsi də 1974-cü ildə başlanıb, həmin vaxt V.J.Esten prezident deyildi. Silviya Kristel dünya kişilərinin xəyallarını bəzəyən erotik serial "Emmanuel"in qəhrəmanıdır. Aktrisa Yelisey sarayında yaşamasa da, heç zaman münasibətlərini gizlətməyiblər. Onu bütün rəsmi tədbirlərə dəvət ediblər, o da orda özünü ev sahibəsi kimi aparıb. Prezident hətta onu ölkə xaricindəki səfərlərinə də aparırmış. Bundan fransız xalqı da xəbərdar olub və "sevgi aşiqi" olan fransızlar heç zaman buna aqressiv reaksiya verməyiblər. Dünya tarixində prezidentlərin sevgililərindən heç biri özünü Silvia kimi açıq, komplekssiz aparmayıb.

Amma fransız deyib keçməyin. Onların da əsəbləri tarıma çəkilir belə mövzularda. İlk belə qalmaqal 1995-ci ildə baş verib. Həmin vaxt yenicə Fransa prezidenti olan Jak Şirak Yelisey sarayından Ann Penjo və onun qızı Mazarini çıxarıb. Bu şəxslərdən biri Fransua Metteranın rəsmi sevgilisi, digəri isə qızı olub. Mitteranın ölümündən sonra isə daha bir qalmaqal baş verdi. Keçmiş prezidentin ailəsi Ann və Mazarinin dəfn mərasimində iştirakına etiraz edib. İndi mətbuat yazır ki, Ann ayın əvvəlini sonuna güclə bağlayır. O, Paris muzeylərindən birində çalışaraq, ildə cəmi 40 min dollar qazanır və Sena çayının sol sahilindəki kiçik bir evdə yaşayır.

**2 uşaq anası jurnalist 27 il gizli sevgili olub**

Avstraliyada da belə rəngarəng hadisələr az olmayıb. Bu ölkənin sabiq baş naziri Bob Xouk la yazıçı Blanş Dapuljenin hekayəsi isə olduqca sadə olub. Dapulje baş nazirlə onun bioqrafiyasını yazmaq üçün tanış olub. Yaşanan eşq hekayəsi barədə bütün ölkə xəbər tutub. Xalq baş nazirlərinin çoxdan bəri öz həyat yoldaşı ilə yaşamadığını bildikləri üçün hətta bir qədər şad idilər də demək olar. Bob və Blanşın xalqın "xeyir-dua"sına baxmayaraq, etik normalara riayət etməyə çalışırdılar. Missis Dapulje hətta Avstraliyadakı hökumət evində təşkil olunan rəsmi və qeyri-rəsmi səfərlər zamanı ev sahibəliyini də öz boynuna götürdü. Bununla belə onlar hər zaman ayrı yaşayıblar.

İrlandiyanın "Uğur əsgərləri" partiyası liderlərindən, daha sonra isə parlament üzvü olan Çarlz Xoxinin hekayəsi daha əcaibdir. O, düz 27 il bir jurnalist xanımla eşq macərası yaşayıb. Terri Kin adlı jurnalist qadın ailəli və 2 uşaq anası olub. Əslində İrlandiyada bir siyasətçinin evli bir qadınla eşq yaşaması siyasi intihara bərabər idi, amma Ç.Xoxi üçün yox. T.Kin olduqca məşhur jurnalist olub və onun barəsində həmkarları belə deyib: "Terri ilə mübarizə aparmağı ancaq kamikadze bacarardı".

**Ən böyük qalmaqal - Monika hekayəsi...**

Və dünyaya səs salmış Monika Levinski və Bill Klinton macərası. Bu olay bir prezidenti mənəvi məhvə aparan ilk yasaq sevgi hekayəsidir. Cütlüyün romanı bir neçə ay davam edib. 1995-ci ildə Monika Ağ Evdə stajor olaraq çalışırmış və onu tez-tez Oval kabinetdən çıxarkən görənlər ilk vaxtlar heç nədən şübhələnməsələr də, sonradan hər şeyin rəngi dəyişib. Daha sonradan aparılan araşdırmalar bu münasibətlərin 9 epizodunu sübuta yetirdilər. Ağ Evdə baş tutan gizli görüşlərin detalları bəlli olandan sonra Klintona prezidentlik müddətinin sonuna qədər vəzifədə qalmağa icazə verdilər. Levinski isə istədiyi hər şeyə nail oldu - məşhurlaşdı, televiziyada işə düzəldi, bioqrafik kitab çıxardı, "Monika ağ-qara rəngdə" adlı film çəkdirdi və beləcə ömrünün son günlərinə qədər özünün maddi rifahını təmin etdi. Kitablarına və məlum filmə görə Levinski milyonlarla dollar qazanıb.

**Leninlə Stalindən çıxmayan iş - onların da sevgilisi olub**

Bu siyahıda bir az qəribə görünə bilər. Amma bolşeviklərin dahi rəhbəri Vladimir İliç Leninin də gizli hekayəsi olub. İnessa Armand adlı qadın Leninlə Parisdə, Krupskayanın gözü qarşısında tanış olub. Onların münasibəti isə Armand vəfadan dünyasını dəyişdiyi son günə qədər davam edib.

Stalinin sevgililərindən biri isə opera müğənnisi Vera Davıdova olub. Onların tanışlığı Böyük Teatrda baş tutub. Onda Stalinin 54, Veranın isə 28 yaşı olub. Müğənninin çıxışından sonra Stalin ona böyük gül buketi göndərib. Sevincdən gözləri dolan Vera Davıdova sonra fəxri lojaya dəvət olunub. Stalin möhtəşəm çıxışına görə Vera Davıdovaya təşəkkürünü bildirib və onu Moskvaya Böyük Teatrda işləməyə dəvət edib. Bu haqda düşünmək lazımdır deyən Vera Davıdova bir aydan sonra Leninqraddan Moskvaya köçüb. Paytaxta köçən kimi Stalinin göstərişi ilə dərhal 3 otaqlı mənzillə təmin edilib və digər problemləri həll olunub.

**Sevgilisini əlləri ilə qubernatora ərə verib**

Keçmiş Gürcüstan prezidenti Mixail Saakaşvilinin eşq dəftəri də hər zaman dolu olub. Onun sevgililəri arasında daha çox siyasətçi Maya Nadiradzenin və keçmiş mətbuat müşaviri Marika Verulaşvilinin adı çəkilir. Amma əsas qalmaqal Mişanın Alana Qaqloyeva ilə yaşadıqları zamanı baş verdi. Qulaqdan-qulağa dolaşan şayiələrə görə, Saakaşvilinin həyat yoldaşı Sandra Rullovsa Alana eyni zamanda hamilə qalıb. Hekayə gün üzünə çıxanda isə Saakaşvili hamilə sevgilisini Şido Kartlinin qubernatoru Mixail Kareli ilə evləndirməyə qərar verib. 20 yaşlı qızcığazı əslində sevgili statusu tamamilə təmin edirdi, çünki prezidentin hesabına yaşayırdı. Bu hekayə isə Saakaşvilinin oğlu dünyaya gələndən sonra yekunlaşdı.

Alina Kabayeva... Putinin gizli sevgilisi, oğlunun anası. Baxmayaraq ki, keçmiş gimnast bu uşağın onun yox, qohumunun olduğunu hər fürsətdə sübut etməyə çalışır. Məlumatlara görə, Putin məşuqəsini 2 uşağı ilə Soçidə yerləşən "Soçi sarayı"nda yerləşdirib. Bu günlərdə isə sözügedən mövzu yenidən gündəmə gəlib. Daha öncə canlı yayımda həyat yoldaşı ilə boşandığını rəsmən elan edən prezident Vladimir Putinin bu addımı atmasına səbəb Kabayeva ilə uzun müddətdir davam edən əlaqələri göstərilsə də, cütlük ayrı-ayrılıqda bu əlaqələri inkar edib.

Liviyanın linç edilmiş lideri Müəmmar Qəzzafi də ətrafına daim qadınlar yığması və ekstravaqantlıqları ilə məşhur olub. Onu hər zaman qadın cangüdənlər əhatə edib. WikiLeaks saytı daha öncə Qəzzafinin 38 yaşlı ukraynalı tibb bacısı Qalina Kolinskaya ilə hekayəsi barədə geniş yazıb. Saytın yazdığına görə, onun səhhəti ilə düz 4 ukraynalı tibb bacısı məşğul olur.

❑ **Sevinc TELMANQIZI**

YENİ MÜSAVAT

Son səhifə

N 177 (6498) 13 avqust 2016



## Çox xoruldayanlar... ölə bilər

İnsanların 45 faizi yatdığı zaman xoruldayır. Aparılan müşahidələr zamanı məlum olub ki, xoruldama problemi ilə ən çox kişilər qarşılaşır. Ağız və burun arxasındakı hava yolunda darlıq olduğu zaman ortaya qəribə səslər çıxır. Xoruldama burun tutulmasıyla görünən müxtəlif xəstəliklərin əlaməti olmaqla yanaşı, bir çox fiziki qüsurlar nəticəsində də yarana bilir. Dar, uzun və ya çox ətli damağı olan insanlar hər zaman xoruldayırlar. Xoruldayan insanlar hər zaman yüksək təzyiqin olmasından şikayətlənirlər. Xoruldama nəfəs kəsilməsi xəstəliyi ilə nəticələnə bilər.

Xorultu çox zaman çəkisi artıq olan insanlarda müşahidə edildiyi üçün ilk növbədə çəkini azaltmaq məsləhət görülür. Xoruldama bədənin istirahət etmə müddətini azaldır. Çünki xorultu insanları dərin yuxu fazasına keçməyə imkan vermir. Dərin yuxu fazasına keçmədən istirahət isə mümkün deyil. Xoruldamaq ailə həyatını da təhlükə qarşısında qoyur.




## “WhatsApp”a görə ərini məhkəməyə verdi

Yəməndə yaşayan bir qadın “WhatsApp” proqramına aludə olan həyat yoldaşını məhkəməyə verib. Ölkə mediasında yayılan məlumatlara görə, adı açıqlanmayan qadın Aden məhkəməsinə müraciət edərək ərinin bütün vaxtını sosial şəbəkələrdə keçirdiyini, ona vaxt ayırmadığını və ər kimi vəzifələrini yerinə yetirmədiyini deyib. Qadın ərindən ona da sosial şəbəkələr qədər vaxt ayırmasını tələb edib. Məhkəmənin qərarından sonra kişi arvadına və evinə lazım olan qədər vaxt ayıracağına söz verib.

# 97 yaşlı nənəsini cavanlaşdırdı

Amerikanın Teksas ştatının sakini anasının 97 yaşlı anasını makiyaj edərək, xeyli cavanlaşdırıb. Bu barədə lenta.ru saytı “Daily Mail”ə istinadən xəbər verir. 18 yaşlı tələbə və vizajist qız Tiylor Trimbl makiyajdan sonra əldə etdiyi nəticəni sosial şəbəkədə paylaşıb. 8 mayda baş vermiş bu hadisə indi diqqəti cəlb edib və 8 min layk alıb. 97 yaşlı qadının nəticəsi deyib ki, o, bununla həm anasının nənəsini cavanlaşdırmaq, həm də öz işində uğur qazanmaq istəyib. O, nənəsini qaldığı qocalar evində ziyarət edib. Sosial şəbəkənin əksər istifadəçiləri deyiblər ki, onun nənəsi bu makiyaj sayəsində olduğundan daha cavan görünür.



# Ölən insanların cəsədlərini quşlara yedirdirlər

Çinin Tibet, Qinghai və İç Monqolustan bölgələrində yaşayan və Vajrayna buddizminə sitayiş edən insanlar qədim zamanlardan bəri qəribə bir ənənəni yaşatmaqda davam edirlər. Orada yaşayan xalqlar ölən insanları parçalayaraq quşlara yedizdirirlər. “Göy üzünə dəfn” adı verilən bu mərasim zamanı ruhların başqalarının ruhunda canlanacağına inanırlar. İnsanlar cəsədləri quşlara yedizdirərək, onların başqa kiçik canlıları yeməsinə əngəl olduqlarını düşünürlər. Beləliklə, quşlar başqa canlıları yemir və həyat olduğu kimi davam edir. Quşların yeyə bilmədikləri sümüklər isə əzilib yenidən başqa yeməklərə qatılaraq qarğalara yedizdirilir. Buddistlər qəlbi döyünməyən birinin bədəninin saxlanılmasını və dəfn edilməsini mənasız hesab edirlər.

Vajrayna buddistlərinin cənazə mərasimləri turistlər tərəfindən gizlicə videoya çəkilib. Halbuki turistlərin bu mərasimi izləməsinə icazə verilmir.





## Bura dünyanın ən soyuq nöqtəsi sayılır

Amerikan alimləri dünyanın ən soyuq nöqtəsini kəşf edib. Belə ki, Antarktida qitəsində yerləşən təxminən 4 min metr yüksəkliyi olan Dome Fuji dağında soyuqluq -91 dərəcədir.

- 91 dərəcə bir neçə dəqiqə içində insanın gözlərini, burnunu, hətta ağciyərlərini belə dondura bilər.

Buna görə də elm adamları araşdırmalarını inkişaf etmiş peyk texnologiyası sayəsində həyata keçirib.

1983-cü ildə rus elm adamları ən soyuq yerin Antarktika qitəsində -89 dərəcə olduğunu təyin etmişdi.




**QOÇ** - Həddindən ziyadə uğurlu bir gün yaşayacaqsınız. İstər şəxsi büdcənizi artırmaqda, istərsə də qarşılıqlı münasibətlərdə vəziyyət xeyrinizə olacaq. Səfərə çıxmağa dəyər.

**BUĞA** - Təəssüf ki, avqust ayının ən gərgin gününü yaşaya bilərsiniz. Bu səbəbdən də hətta su içəndə belə, ayıq-sayıqlıq göstərməlisiniz. Əsəblərinizi, həmçinin daxili orqanlarınızı qoruyun.

**ƏKİZLƏR** - Maliyyə problemlərinin bolluğuna baxmayaraq ulduzlar digər məsələlərdə yardımçınız olacaq. Günün ikinci yarısında isə sevindirici təsadüflərlə rastlaşacaqsınız. Buna hazır olun.

**XƏRÇƏNG** - Bəxtinizdə mistik bir təqvim durub. Xurafata uymaqdansa müqəddəs ziyarətgahlarımıza baş çəkin. Hər hansı çılğınlıq, risk və lazımsız adamların işlərinə müdaxilələr məsləhət deyil.

**ŞİR** - Hansısa xoşagəlməzliyi gözləməyə dəyməz. Əksinə, bu proqnozu oxuyan kimi aktivliyinizi artırmalısınız. Saat 15-dən 18-ə qədər bir neçə sürprizlə rastlaşma ehtimalınız böyükdür.

**QIZ** - O qədər də uğurlu tarix deyil. Ətrafınızda olanlar əsəblərinizi tarıma çəkməyə çalışacaq. Əgər bu manеələrdən qurtulmaq istəyirsinizsə, təmkin göstərin. “Hirsli başda ağıl olmaz” axı.

**TƏRƏZİ** - Səhhətinizlə bağlı diqqətli olun. Yersiz sıxıntılar heç də xilas yolu deyil. Ailə-sevgi münasibətlərini tənzimləməyə çalışın. Maddi problemlərinizin tezliklə həll olunacağına inanın.

**ƏQRƏB** - Nə qədər çətin olsa da, ixtiyarınızda olan bu təqvimdə neytral olmalısınız. Əks təqdirdə, böyük qanqaraçılıq gözlənilir. Ələlxüsus da, pul haqq-hesablarında gözləmə mövqeyi tutun.

**OXATAN** - Saat 13-15 aralığını nəzərə almasaq, bu təqvimi kifayət qədər xoş ovqatla başa vura biləcəksiniz. Düz yolda olduğunuz üçün mövqeyinizdə bərk dayanın. Amma sərtlik göstərməyin.

**OĞLAQ** - Adi bir gün yaşamalı olacaqsınız. Hansısa müvəffəqiyyət və ya uğursuzluq gözlənilmir. Yaxşısı budur, başınızı aşağı salıb adi işlərlə məşğul olasınız. Bütün təkliflərdən imtina edin.

**SUTÖKƏN** - Nahara qədər ovqatınızda baş qaldıran xoşagəlməzliklər qarşıya qoyduğunuz məqsədlərə yetişməyə mane ola bilər. Odur ki, riskli işlərdən yayının. Sonrakı müddətdə isə dəstək alacağınız mümkündür.

**BALIQLAR** - Nəzərdə tutduğunuz planların ləng inkişafına görə usanmayın. Ən azı ona görə ki, Göy qübbəsi bu gündən etibarən şəxsi işlərinizdə böyük dönüşə yiyələnəcəyinizi bəyan edir.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## İt sahibəsinin alt paltarlarını yedi



Britaniyada itlər üçün sığınacağa gətirilən it hamını şoka salıb. Onun qarnından düz 3 ədəd qadın alt paltarı çıxıb. “Irish Independent”in yazdığına görə, baytar Sema Barli itin özünü narahat aparmasından şübhələnib və onu rentgenə salıb. İtin qarnında düz 3 ədəd qadın alt paltarı olduğu aydınlaşıb. Hər üç alt geyimi itin qarnından təbii yollarla çıxıb. Barni adlı itin nə vaxt və hansı şərtlərdə bu paltarları yediyi hələlik tapmacadır. Onun qida rasionu diqqətlə izlənilir. Baytar bildirib ki, daha öncə də qarnında balaca top, kağız, plastik oyuncaq olan itlərlə qarşılaşıb.

Səhifəni hazırladı: SELCAN

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Nazim SABİROĞLU

Lisenziya N: B 114
SAYI: 4.750

“Yeni Müsavat”ın kompüter mərkəzində yığılıb, səhifələnib, “Azərbaycan” nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.



# “Beş, altı, Daşaltı”

Zamin HACI
zaminhaci@mail.ru

## (Mən bu uşaq sanamasında “daşaltı”nı həmişə böyük hərflə oxumağın tərəfindəyəm)

**Keçən ilin sentyabrında şəhid ailələri deputatxananın qabağında piket keçirib iyirmi ildən çoxdur ala bilmədikləri qan pulunu tələb edirdilər. Onların əzizləri vətən uğrunda həlak olublar, ancaq vətən 11 min manatlıq sığorta pulunu onlara vermədi. Süründürdü, qapılara saldı, bezdirdi, ancaq vermədi. Həmin aksiyanın üstündən bir ilə yaxın vaxt keçir. Vəziyyət dəyişməyib. Yada saldım, dedim villa tikən deputatlar oxuyub feyziyab olsunlar. O cümlədən vətən temasında boşboğazlıq edən, ancaq öz oğullarının adını ən yaxşı halda Bakıdakı hərbi hissələrə yazdıran deputat qırıqları da bəlkə narahat oldular.**

Qan pulu öz yerində, indi Ərdoğandan şad xəbər vardır. Bu dəfə deyirlər Ərdoğan müəllim 5 rayonumuzu qaytarır. Yenə keçən ilə qayıtmaq olmasın, bizim bir qohum vardı, keçən ilin yayında 55 yaşında öldü - azərbaycanlı həkimlərin bisavadlığı üzündən. İnfarkt keçirmiş adamı o durumda xəstəxanadan evə yola salmışdılar, elə qapısının ağzında təzədən ürəyi tutmuşdu. Həmin qohumun məndən daima soruşduğu, hətta bəzən bezdirdiyi tema elə bu “Rayonların qaytarılması” idi. Özü məcburi köçkün rayonundan olsa da, doğulduğu kənd bizdə idi, ancaq adamın işğal altındakı rayon mərkəzində bir balaca torpaq sahəsi, o sahənin də içində yarımçıq tikilisi qalmışdı. Hərdən Google-nin “Earth” proqramında mənə o tikilinin xarabalığını açdırıb baxardı.

Görürdün yazıq hardasa bir telekanalizasiyada, ya da qəzet cırığında mənasız, yalan-palan proqnozlar eşidib mənə deyirdi: “Deyəsən, bu yaz *(yay, payız, qış da ola bilərdi - baxırdı qohum o yalanı hansı fəsildə eşidib - Z.H.)* rayonlar qayıdır”. Adam elə bu yalan ümidlərlə ölüb getdi.

Bu yay onun ölməsinin 1 ili, rayonlarımızın qaytarılması yalançı vədlərinin isə azı 23 ili tamam oldu. Axı rayonların da çoxu elə yayda, yapistlərin “milli qurtuluş günündən” sonra əlimizdən “qurtulmuşdur”. Ancaq daha öncə işğal edilən ərazilər də var. Misal üçün, Kəlbəcər. Misal üçün, Laçın, Şuşa, Qarabağın irili-xırdalı azərbaycanlılar, yaxud ermənilər demişkən, “türklər” yaşayan kəndləri. Bunlarda işğal 24 ildir. Bəzilərində 25 ildir. 26 ilə çatan da var.

İllər keçdikcə “deyirlər rayonlar qayıdır” soruşan qohum və tanışların sayında təbii azalma olur. İnsanlar ölürlər. O ərazilərin bizə məxsus olduğunu xatırlayan adamlar ölürlər. Hərçənd bu da ermənilərə ümid yeri olmasın. Əgər Qubadlıya köçürülən xarici erməni üçün bu ərazilər heç bir yaddaş yükü daşımırsa, bizim üçün Qarabağı xatırlamayan nəsilin yetişməsi də nəyisə dəyişmir. Rəhbərlikdə olanların kefindən asılıdır. Putinin, Obamanın, ATƏT-in vəziyyətindən asılıdır. İstəsən bu problemi yüz il uzatmaq olar. Kasıbların, yetimlərin canı sağ olsun. Hər iki tərəfdən cəbhə qazanına atmağa nə qədər cavanlar var. At, bişir, ye. Hakimiyyətin uzansın.

Yeri gəlmişkən, indi 15 rəqəmli qurtuluşdan bir dənə də Anadolu türkləri üçün yetişmişdir. Qutlu olsun, qoşa qarısınlar. Bir ay fərqlə. Bizdə iyundur, onlarda iyuldur. Bir millət, iki qurtuluş. Kef eləsinlər. Atatürkün qurtuluş savaşı yalan olmuşdur. Zəhmətkeş toplantılarının qızğın vaxtıdır. Barı mitinqlərə və dəstək teleqramlarına başları qarışıb Diyarbəkiri-filanı itirməsinlər. Bizdə təxminən bu ssenari ilə olmuşdu.

Beş rayonun qaytarılmasında personaların iştirakı da mövsümi olaraq dəyişir. Bir ara rayonları Putin qaytarırdı. Ancaq təzəlikcə Putin müəllim gəldi dedi, davanı özünüz həll edin, mən qarışmıram, mən uzağı bir-birinizi qırmaq üçün bomba verərəm. Estafet keçdi Ərdoğan müəllimin əlinə. Yaxın gələcəkdə ola bilsin beş rayonu Olland qaytaracaq. Sonra Merkel. Daha sonra Obama. Təzədən dövrə vurub Ərdoğandan rayon umacağıq.

O vaxta söhbətin hansı rayonlardan getdiyini unudarıq. Bəlkə onlar Kürdəmir, Ucar, Ağcabədi, Lənkəran və Samuxu nəzərdə tuturlar?

---

# Türkiyənin Azərbaycandakı səfirindən ilginc açıqlamalar:

# “Canına qəsd planlanan seçilmiş bir prezident...”

## **İsmayıl Alper Coşqun:** “Konstitusiyalı quruluşu açıq şəkildə hədəfə alan terror təşkilatına qarşı təbii ki, ən sərt təpki göstərilməlidir”



**Türkiyə Cümhuriyyətinin Azərbaycan Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri İsmayıl Alper Coşqun “Yeni Müsavat” qəzetinin redaksiyasında olub. Qəzetimizin baş redaktoru Rauf Arifoğlu ilə görüşdə səfirliyin ikinci katibi Oğuzhan Albayraq və mətbuat müşaviri Hamit Karadeniz də iştirak edib. Görüşdə qardaş ölkədəki 15 iyul hadisələri əsas müzakirə mövzusu olub. Türkiyə səfiri “Yeni Müsavat” qəzetinin çoxsaylı suallarına cavab verib. Müsahibənin ikinci bölümünü təqdim edirik:**

*(əvvəli ötən sayımızda)*

**Rauf Arifoğlu:**

***- Türkiyə prezidenti CNN Türk televiziyasına müsahibəsində FETÖ-nün çevriliş cəhdi etdiyini, Türkiyəni qana buladığını, ölkənin şəhidlər verdiyini dedi. Amma o, bir fikir söylədi, dedi, bu, Fətullah Gülənin ağlı deyil, daha üst ağlın məhsuludur. Bununla belə, detalları söyləmədi. Hər kəsi düşündürən budur: bu qədər təyyarəni havaya qaldıran, generalları koordinə edən gerçəkdən bir ruhani, mollamı, yoxsa “üst ağıl” deyilən hansısa qüdrətli dövlətmi bunu etdi?***

**İsmayıl Alper Coşqun:**

- Müxtəlif fikirlər söylənilir. Ən başlıcası sizin də dediyiniz kimi, bir üst ağlın, arxa planın olduğunu söyləmək mümkündür. Amma hələ ki bu barədə rəsmi mövqe yoxdur.

***- Türkiyə dövləti bunu kimlərin etdiyini bilirmi?***

- Təbii ki, hörmətli prezidentimizin Türkiyənin dövlət orqanlarından aldığı məlumatlar məndə yoxdur. Mən bu barədə detallı açıqlama verəcək durumda deyiləm. Sizə bir məsələni deyim, qarşımızdakı fenomenə bir baxmamız lazımdır. Biz FETÖ-dən bəhs edirik. Bu nədir? Fəaliyyətinə nəzər yetirdikdə, 140-dan artıq ölkədə bəlli sütunlarla hərəkət edən bir orqanizmdir. Bu, təhsil, ticarət fəaliyyəti ilə məşğul olan , həmçinin media quruluşlarını əldə saxlamaqla fəaliyyət göstərən bir şəbəkədir. O bəhs etdiyim 3 sütun üzərindən, xaricdən baxdıqda, ürəyə, gözə, qulağa xoş gələn xeyriyyə fəaliyyətləri ilə məşğuldur və s. Və bunu 140-150 ölkəyə yaymış vəziyyətdədir. Üstəlik, bunların maliyyə qaynaqları, bir-biri ilə əlaqələri çox əhatəlidir. Bütün bu orqanizmin başında görünən şəxs orta təhsilli bir molladır.

***- Maraqlıdır...***

- Bəli, çox maraqlıdır. Üstəlik, bu şəxsin və bu fəaliyyətin böyük bir coğrafiyanı əhatə etdiyini də görürük, bilirik.

***- Amma Türkiyə dövləti də dəstək verirdi...***

- O bölümə ayrıca gələrik... Amma bütün bu tabloya baxdığımız zaman bunun arxasını anlamaq ehtiyacını hiss etməyimiz təbiidir. Siz də dediniz ki, çevrilişdən sonra bəzi yazarlar, elə sizin də müxbiriniz ABŞ-la bağlı bəzi yazılar yazdılar.



### “Bu, təkcə Türkiyə ilə məhdudlaşan məsələ deyil”

***- Bəli, ABŞ Silahlı Qüvvələrinin komandanından da həbs olunan generallarla bağlı açıqlama da gəldi...***

- Onlar təbii ki, spekulyasiyalara zəmin yarada biləcək açıqlamalardır. Amma ABŞ-dan söz düşmüşkən, bunu deyim, əgər ətrafda ABŞ-la bağlı təxmin, spekulyasiya varsa, təbii ki, bunu hörmətli baş nazirimiz söylədi: bunu ortadan qaldırmağın ən təmiz, gözəl, ən açıq yolu Türkiyə Respublikası kimi ABŞ-ın uzun illərdir müttəfiqi olan bir ölkənin yaxın tarixində qarşılaşdığı ən böyük təhdid qarşısında bunun günahkarı kimi təsbit etdiyimiz terror təşkilatının başındakı adamın mühakimə olunması üçün Türkiyəyə təhvil verilməsidir. Bunu etdiyi təqdirdə kənardan baxılanda hiss edilən bütün ehtimallar, tərəddüdlər, sual işarələri təbii şəkildə aradan qalxacaq. Dünən (sraăagün-red.) axşam da hörmətli prezidentimiz bu barədə mövqeyini bir daha bəyan etdi.

***- Amma çox kəskin şəkildə “ya Türkiyə, ya FETÖ” deyə, ortaya seçim qoydu.***

### “Əgər bu hadisə baş verməsəydi, aldığım bir kitabdan belə bir ssenarini oxusaydım və ya bir filmə baxsaydım, kitabı zibilliyə atar, filmi də yarıda buraxardım”

- Amma düşünün, niyə bu seçimi ortaya qoyur? O gecə canına qəsd edilməsinə çalışılan seçilmiş bir prezident vardı burda. Xalqın mütləq əksəriyyətinin səsini alaraq prezident seçilib. O gecə Türk xalqının iradəsi, hörmətli prezidentimiz haqda danışarkən həddimi aşmış olmayım, amma onun da siyasətçi olaraq məsuliyyəti Türkiyə konstitusiyalı quruluşuna, dövlətimizin başçısı olaraq sahib çıxmaqdır. Konstitusiyalı quruluşu açıq şəkildə hədəfə alan terror təşkilatına qarşı təbii ki, ən sərt təpki göstərilməliydi.

***- Amma bu təpkinin arxasında bir təhdidin qalması kimi rahatsızlıq da var sanki. Bu, belədirmi? İnsanlar düşünür ki, Türkiyə dövləti bir adamın üzərinə bu qədər gedirsə, o, yalnız ədalətin bərpası olmaya bilər. Əcəba, başqa bir təhdidmi var?***

- Öncə yuxarıdakı sualınıza cavab verim. Türkiyənin də dəstək verdiyini dediniz. Camaat-Türkiyə əlaqələrindən bəhs edək. Ardınca təhdidin davam edib-etməməsindən danışaq. Dünən *(10 avqust-red.)* gecə keçirilən mitinqin qarşısında çıxış edən hörmətli prezidentimiz, diqqət etdinizsə, “bu demokratiya növbələrinə vergül qoyuruq”, - dedi. Yəni vergül qoydu, nöqtə yox. Vergül qoyulanda isə cümlə davam edə bilir.

***- Yəni təhdid də davam edir?***

- Təhdid deməyim. Amma bizim bu mövzuda həssas, diqqətli olmağa ehtiyacımız var. Nədən? Digər mövzuya qayıdıram. Bu, qarşımızdakı təhdidin özəlliyindən qaynaqlanır. Türkiyə-camaat əlaqələrindən danışdınız, “Türkiyə dəstəkləyirdi”, dediniz. Hörmətli prezidentimizin, dövlət yetkililərimizin açıqlamalarını da gördünüz. Yəni diqqət etdikdə görürük ki, bunların fəaliyyətlərinin görüntüsü çox bacarıqlı şəkildə həyata keçirilib. Mən də 90-cı illərin əvvəllərində bəzi ölkələrə gedən zaman onların məktəblərini görürdüm. Afrikanın ucqarlarında uşaqlar türkcə öyrənir, təhsil alırlar, qara dərili, türkcə danışan çocuqlar çıxır qarşımıza, adamın könlünü oxşayır. Üstəlik, təhsillərdən aldıqları nəticələr səbəbindən bəlli nöqtəyə gəldiklərini görürük. Eyni zamanda xeyriyyəçilik fəaliyyətləri var, “əxlaqlı və ədəbli uşaqların yetişdirildiyi” mühit görüntüsü var. Bu tablo içərisində qulağa, könülə xoş gələn məqamlar var. Amma bu təcrübə ilə gördük ki, bu mühitdə görülən işlərin nəticəsində Silahlı Qüvvələrin Baş Qərargah rəisimizin sağ tərəfində duran, 30 ildir dövlətə xidmət edən bir insan dövlətinə və bayrağına sədaqətini unudub, komandanına silah çəkdi, o insanı və konstitusiyalı quruluşu hədəf aldı.

***- Əksər generalların yavərləri, hətta prezidentin yardımçısı da elə oldu...***

- Bəli, təəssüf ki. Dolayısı ilə Türkiyənin camaatla yaxınlıq etdiyi keçmişə baxdıqda, deyə bilərik ki, açığı, bunun səbəbi onların öz quruluşlarını müsbət şəkildə təqdim etməsidir.

***- Onlar bütün bunları Türkiyə Cümhuriyyətinimi ələ keçirmək üçün etmişdilər? 30-40 il ancaq bunumu gözləyiblər?***

- Elə görünür. Baxın, Fətullah Gülənin öz çıxışlarında var. Nə deyir? “Türkiyə Cümhuriyyətinin konstitusiyalı quruluşlarının içərisində, kapillyar damarlarında yerləşəcəksiniz”.

***- Ancaq bunu çoxdan deyib...***

- Doğru, keçmişdə söyləyib. Amma bunun gerçək mənada nə qədər təsirli bir nəticəyə gətirib çıxaracağını, açığı, biz yetərincə təhlil etməmişik. Burada bizim özümüzə ünvanlanası suallar da var. Həm sistemdəki xətalar var, həm ona baxırıq, həm təhlükəsizlik sistemimizdə, ordumuzda və digər qurumlarımızda... Həm də, açığı, ən çox barəsində danışılan və üzərində dayandığımız bir məqam liyakatdır *(layiqlilik - haqqı olanı daha önə çəkmək anlamında - red.)* Yəni dövlət qulluğunda layiqliliyin önəmi. Türkiyədə etmək istədikləri bəllidir. Bunlar Türkiyə hakimiyyətini yıxıb, özlərinə uyğun bir düzəni iş başına gətirmək istəyirdilər... Amma bu, təkcə Türkiyə ilə məhdudlaşan məsələ deyil. Nədən 140-150 ölkədə bu təşkilatlanma var? Nədən getdiyi hər yerdə eyni sütunları qurur, ondan sonra yavaş-yavaş möhkəmlənməyə doğru gedir? Əsas məsələ budur. Daha sonra digər sualınıza qayıtmaq lazımdır: bu, kimin qurğusudur? Bir orta təhsilli şəxsinmi?

***- Amma bizdəki məlumat və təəssürat bu idi ki, bu, Türkiyənin qurğusudur...***

- Çünki Türkiyə sahib çıxırdı...

***- Sahib çıxırdı. “Türkcə Olimpiatları” tədbiri yadımdadır, indiki prezident, sonra Bülənt Arınc o tədbirlərdə çıxış etdi, hər kəs də xoş sözlər dedi, bu işi təriflədi. Xaricdəki, o cümlədən də Azərbaycandakı insanlar da baxdılar ki, bunlar Türkiyədə söz sahibidir, bunların məktəblərinin tədbirinə prezident gəlir, dövlət böyükləri gəlir... Ona görə də hər kəs öz uşaqlarını həmin məktəblərə verməyə can atırdı ki, övladım böyüyəndə bunca güclü, arxasında dövlət olan bir çevrəyə daxil olsunlar...***

- Doğrudur...

***- Mənim tanıdığım insanlar vardı, uşaqlarını pulsuz təhsil verən Azərbaycan məktəblərindən çıxartdılar, bahalı Gülən məktəblərinə yerləşdirdilər ki, Türkiyədə bu uşaqlara meydan verilsin, övladları böyük adam olsun, dünyaya çıxsınlar... Düzdür, Türkiyə iqtidarı buna görə Türkiyə xalqından üzr istədi, indiyə qədər yanlış yapıldığını dedi. Amma kənarda qalmış bir toplum da var. Yəni Gülən məktəblərinin olduğu ölkələrdəki məktəblər, insanlar... Onlar nə etsinlər? Hörmətli Türkiyə prezidenti deyir ki, bunların kökünü qazacağıq. Amma siz də dediyiniz kimi, onlar artıq dünyaya rişələniblər. İndi Türkiyə vətəndaşları Azərbaycanda və başqa ölkələrdə bir-biri ilə savaşacaqlarmı? Yaxud burada kökü qazmaq deyərkən, nə nəzərdə tutulur?***

- Keçmişə qayıtsaq, camaatın fəaliyyət dövrü 30-40 ili əhatə edir.

***- 20 ildən bir az da çoxdur Azərbaycandadırlar.***

- Təbii. 30-40 il ərzində, sadəcə, sizin sadaladığınız şəxslər, hörmətli prezident, Bülənt Arınc və ya başqa dövlət yetkililəri deyil, Türkiyə siyasətində yer tutmuş hər kəsin bu quruluşla bu və ya digər şəkildə münasibətlərinin olduğunu deyə bilərik.

***- Doğrudur. Biz yalnız indiki iqtidarı nəzərdə tutmuruq, Türkiyə Cümhuriyyəti dövlətindən bəhs edirik...***

- Hər halda, Türkiyədəki bütün siyasi çevrələrin belə bir quruluşla əlaqələrinə necə izn verildiyinə və bir daha belə nəticələrin baş verməməsi üçün bizim siyasi mədəniyyətimizdə nələrin edilməsinə baxmağımız lazımdır. Bu mövzuda öz-özünə sualların verilməsi zəruridir və bu, sadəcə, AKP-nin deyil, bütün siyasi çevrələrin, vətəndaşlar olaraq da hər birimizin məsələsidir və bununla bağlı müzakirələr çox önəmlidir. Bir məsələyə də aydınlıq gətirim, hörmətli prezidentimiz “bunların kökünü qazacağıq”, deyərkən şübhəsiz ki, Türkiyə Cümhuriyyətinin suveren hüquqları çərçivəsindəki iradəsini nəzərdə tutur. Gözlənti başqa, bu tərəfdəki iradə başqa. Azərbaycan da müzakirə mövzusu deyil. Amma biz nə edirik? Hər halda, Türkiyədəki bu təcrübə çox ciddi bir təcrübədir. Biz daxildən dövlət qılığına girmiş terrorçuların hücumuna məruz qaldıq. Mən həmişə deyirəm, əgər bu hadisə baş verməsəydi, aldığım hansısa bir kitabdan bu ssenarini oxusaydım və ya bir filmə baxsaydım, kitabı zibilliyə atar, filmi də yarıda buraxardım. Yəni “belə axmaq şey olarmı” deyərdim. Azərbaycandakı insanlarımız bizdəki hər məsələni daha yaxşı anladığı üçün bu məsələni də daha yaxşı görür, anlayır. Sizin də dediyi kimi, bu məktəblər 20 ildən artıqdır burada mövcuddur, buralarda addımlar atılıb. Amma Türkiyənin bu təcrübəsinə başqaları baxdıqda, 20-30 il öncə Silahlı Qüvvələrə girmiş, orada səssizcə gözləmiş qüvvələrin 15 iyulda hərəkətə keçməsi bir az da film-qurğuya bənzəyir. Yəni robotlaşmış bir varlıqdan bəhs etmiş oluruq. Lütfən, o gecə ilə bağlı ortaya çıxan dəlillərə baxın. Nədir o dəlillər? Bir siyahı ilə hansı qurumun başına kim təyin olunacaq, filan bələdiyyəyə kim gələcək kimi məsələlərdən bəhs olunur. İkincisi, hadisələr cərəyan etməyə başladıqdan sonra zamanında Fətullahçı Terror Örgütü ilə əlaqədə olduğu üçün vəzifəsindən azad edilən bəzi şəxslərin - aralarında keçmiş polislər də var - bir hissəsinin hərbi formada yaxalanması da faktdır. Bunlar FETÖ ilə əlaqələri səbəbindən dövlətin uzaqlaşdırdığı şəxslərdir. “Ergenokon”, “Balyoz” davaları indi Türkiyədə çox ciddi araşdırılır. Bu proseslər üçün zəmin hazırlayan, insanlara, iqtidara bugünkü yanaşma ilə desək, tələ quran baş prokurordan söhbət gedir...

***- Bizim tanıdığımız, Azərbaycan davasında yanımızda olan generallar var idi, hamısı “Ergenekon” davasında həbs olunmuşdu.***

- Düşünün, Türkiyənin yetişmiş, vətənpərvər kadrlarını uzaqlaşdırdılar, ortaya qoyulan dəlillərlə də insanlarda ümumi bir rəy yaratdılar. Bu şəxslərin bir qismi intihar etdi, dünyasını dəyişənlər oldu. Amma istənilən halda təəssüf ki, yetişdirilən insanlar da bu qurğuları qurdular. Yəni bu, belə bir təhlükədir. Biz yalnız bu təhlükənin geridə qalıb-qalmamasından bəhs etmirik, bu təcrübələrimizi ən yaxın dostlarımız, qardaşlarımızla paylaşırıq. Çünki bunun iki səbəbi var. Birincisi, bunlar mərkəzləri ölkə xaricində olan terror təşkilatlarıdır. Baxın, PKK-nın da düərgələri Türkiyənin daxilində deyil, xaricindədir. Bunlar məskunlaşdıqları yerlərdə terrorçuluq, maliyyə və digər bütün dövrümüzün hər cür, media və s. imkanlarından istifadə edərək fəaliyyət göstərirlər. O gecə yaşanan hadisələrdən sonra xüsusilə Qərb mediasında “başı kəsilmiş əsgərlərdən”, olmayan hadisələrdən bəhs olundu. Bunlar necə olur? Bəlkə də bunlar hamısı terror təşkilatının arxasında dayandığı məsələlər deyil, amma şübhə yoxdur ki, onların da içərisində yer aldığını məsələlərdir. “Bunun kökünü qazacağıq”, deyərkən biz əməli olaraq Türkiyənin daxilində əlimizdən gələni edəcəyik. Beynəlxalq hüququn verdiyi imkanlar və qardaşlıq əlaqələri daxilində də edəcəklərimiz olacaq.

***- Bir açıq sual verim. Türkiyə ilə Azərbaycan qaynayıb-qarışmış, qardaşlaşmış insanların qarşılıqlı gediş-gəlişi olan dövlətlərdir. Sual olunur, 22 ildə Azərbaycandakı Gülən məktəblərini bitirmiş on minlərlə insan Türkiyənin qara siyahısındamı olacaq? Onların Türkiyəyə yolları bağlandımı?***

- Xeyir.

***- Bəs elə isə bu problem necə həll olunacaq? Bu insanlar məktəblərin sahibinin Türkiyənin iqtidarı olduğunu bilərək oraya getdilər. İndi həmin ailələr və uşaqların durumu necə olacaq? Bəzi ailələr son qəpiklərini verərək həmin məktəblərdə uşaqlarını oxudublar ki, Türkiyəyə yaxın olsunlar. İndi tam tərsi alınıb. Belələrinin taleyi necə olacaq?***

*(davamı növbəti sayımızda)*

❑ Elşad PAŞASOY
Fotolar: İlkin ZƏFƏRLİ, Məğrur MƏRD



